www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 avqust 2019-cu il Cümə axşamı № 160 (7330) Qiymətı 60 qəpik

**Xəbər**

## Sabirabadda iki nəfər qorxunc xəstəliyə yoluxdu, biri öldü

yazısı səh.12-də

**Gündəm**

### Azərbaycan Gürcüstandakı NATO təlimlərinə qatılmadı-səbəb



Keşikçidağ ətrafında gəlişmələr, yoxsa Rusiya amili Bakını imtina qərarı verməyə vadar etdi; ekspert: "Mümkündür ki, Tiflisin Keşikçidağ məsələsində Azərbaycana qarşı dostluğa zidd siyasəti..."

yazısı səh.9-da

### Müxalifət düşərgəsini xaricdən kim qarışdırır-üç ilginc şərh

yazısı səh.5-də

### Parlament seçkiləri ilə bağlı yeni ehtimal-Milli Məclisə onlar gəlir...

yazısı səh.6-da

### Daha bir "mahmudovçu" generalın işi Ali Məhkəmədə

yazısı səh.12-də

### Azərbaycanın bəyənilən xarici borc siyasəti

yazısı səh.13-də

### Poroşenko İstanbula istirahətə gedib, yoxsa ölkəsindən qaçıb?

yazısı səh.6-da

### Ağ Evin müharibə "qırğısı" Con Bolton kimdir?

yazısı səh.4-də

### Avqustda "qora bişməyəcək"-aylıq hava proqnozu açıqlandı

yazısı səh.15-də

### Ermənistanın ABŞ-ın Azərbaycana yardımını əngəlləmək planı

yazısı səh.4-də

### Bakıda növbəti söküntü dalğası-növbə "xruşşovka"lara çatdı

yazısı səh.15-də

### Onları belə zəhərləyiblər - siyasət adamlarının zəhərə dönən həyatı

yazısı səh.10-da

# TÜRKİYƏNİN YENİ NAXÇIVAN PLANI - İRƏVAN TƏLAŞDA

Ankara muxtar bölgənin müdafiəsini gücləndirir; Qarsdan Naxçıvana dəmir yolu çəkiləcək; bu yolla "kiçik torpağ"a hərbi yüklər də daşına bilər - həm də Bakıdan, BTQ vasitəsilə; işğalçı Ermənistan isə blokadadan və taxıl böhranından çıxış yolu axtarır...




yazısı səh.8-də

## Oliqarxlara və deputata bağlı istirahət mərkəzlərinin başı dərddə

Ekologiya Nazirliyi Xəzəri çirkləndirən obyektləri məhkəməyə verdi; hüquqşünas: "Ortaya iradə qoyulsa, işlərə obyektiv baxıla bilər..."

yazısı səh.7-də



### Həmkarlarından Fazil Mustafaya sərt cavablar-qalmaqal böyüyür

yazısı səh.3-də



### Tahir Kərimli varlanması haqda iddialardan danışdı

yazısı səh.5-də



### Rüstəm İbrahimbəyov yenidən Bakıda

yazısı səh.3-də




## Yeni nazirdən yeni təyinatlar

**Müdafiə Sənayesi Nazirliyində (MSN) struktur dəyişikliyi aparılıb və yeni kadr təyinatları olub. "Report"un əldə etdiyi məlumata görə, müdafiə sənayesi naziri Mədət Quliyevin imzaladığı müvafiq əmrlə nazirliyin Hüquq-müqavilə və kadrlar şöbəsi ləğv edilib. Onun əsasında iki yeni şöbə - Hüquq şöbəsi və Kadrlar şöbəsi yaradılıb. Eyni zamanda bu şöbələrə müdirlər təyin olunub. Müvafiq əmrlə Hüquq şöbəsinin müdiri vəzifəsi İsmayıl Kərimova, Kadrlar şöbəsinin müdiri vəzifəsi isə Elgün Bəxtiyarova həvalə olunub. İ.Kərimov bundan əvvəl nazirliyin Hüquq-müqavilə və kadrlar şöbəsinin rəhbəri vəzifəsində çalışıb.**

Bundan başqa, Müdafiə Sənayesi Nazirliyinin Maliyyə və mühasibat uçotu şöbəsinin adı dəyişdirilərək Maliyyə və uçot şöbəsi adlandırılıb. Nazir M.Quliyevin müvafiq əmri ilə Nadim Bayramov MSN-in Maliyyə və uçot şöbəsinin müdiri təyin edilib.

Qeyd edək ki, bir müddət əvvəl müdafiə sənayesi naziri Mədət Quliyevin imzaladığı müvafiq əmrlə nazirliyin Aparat rəhbəri Üzeyir İsmayılov vəzifəsindən azad olunub. Həmin vəzifəyə Zaur Əliyev təyin edilib.

Bundan başqa, müdafiə sənayesi nazirinin müavini Tofiq Rəfiyev də işdən çıxarılıb. Xatırladaq ki, prezident İlham Əliyevin 20 iyun 2019-cu il tarixli sərəncamı ilə general-polkovnik Mədət Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilərək müdafiə sənayesi naziri təyin olunub.



## "Təhsil avtobusu - Nəsimi" yay məktəbi «Bakcell» şirkətinin dəstəyi ilə reallaşıb

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» şirkəti "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində təşkil olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin keçirilməsinə dəstək göstərib.**

**"Nəsimi ili"nə həsr olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin əsas məqsədi şagirdlərin şəxsi inkişafına stimul vermək, həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, onların dərsə marağının artmasına şərait yaratmaq və məktəblilərə Nəsimi yaradıcılığını tanıtmaqdır. İyulun 23-dən 29-dək davam edən "Təhsil avtobusu - Nəsimi" yay məktəbi Bakı-Qusar-Astara-Cocuq Mərcanlı-Qazax-Şamaxı-Bakı marşrutu üzrə səyahət edib. Yay məktəbi çərçivəsində bu bölgələrdəki məktəblərin akademik göstəriciləri zəif və orta olan 200-ə yaxın şagirdi hər biri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçirilən peşə, natiqlik, incəsənət, fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edib.**

**"Təhsil avtobusu - Nəsimi" yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank"ın əsas dəstəyi, "«Bakcell»", "Paşa Həyat Sığorta" və "Optimal" şirkətlərinin dəstəyi və digər şirkət və təşkilatların tərəfdaşlığı ilə həyata keçirilib.**

**«Bakcell» şirkəti ənənəvi olaraq layihə ərzində iki min kilometrdən çox məsafə qət etmiş "təhsil avtobusu"nda yüksək sürətli internet bağlantısını da təmin edilib.**

**Uşaqların inkişafı və təhsilini xüsusi diqqət mərkəzində saxlayan «Bakcell» şirkətinin həyata keçirdiyi Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir. Xatırladaq ki, ilin əvvəlində Təhsil Nazirliyi, «Bakcell» və "AzEduNet" şirkətləri arasında əməkdaşlıq protokolu imzalanıb. Bu əməkdaşlığın məqsədi ucqar kəndlərdə yerləşən 700-ə qədər ümumtəhsil müəssisəsində Azərbaycan Təhsil Şəbəkəsi vasitəsilə internet və şəbəkə xidmətlərinə çıxışın təmin edilməsidir. Əməkdaşlıq çərçivəsində hər ümumtəhsil müəssisəsi «Bakcell» şirkəti tərəfindən təmənnasız olaraq 3 il müddətində inzibati-idarəetmə məqsədləri üçün aylıq internet trafiki və data kartla təmin edilir.**

# "Gəncə işi" ilə bağlı 60 nəfərin cinayət işi məhkəməyə göndərilib

**İyulun 31-də Baş Prokurorluqda geniş əməliyyat müşavirəsi keçirilib. Qurumun mətbuat xidmətindən verilən məlumata görə, baş prokuror Zakir Qaralov geniş məruzə ilə çıxış edib.**



Bildirilib ki, Azərbaycan Prokurorluğunun digər hüquq-mühafizə, ilk növbədə daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli birgə fəaliyyətinin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan ötən illərin müsbət göstəriciləri hesabat dövründə də davam edib, prokurorluğun ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, dövlət maraqlarının müdafiəsi və cinayətkarlığa qarşı kəsərli mübarizənin təşkili istiqamətində fəaliyyəti daha da güclənib, kriminogen stabilliyə nail olunmaqla mənfi təzahürlərin qarşısı vaxtında alınıb.

Hesabat dövründə istintaq və əməliyyat-axtarış fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə cinayət hadisələrinin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 690 vahid artım olmaqla, ümumilikdə qeydə alınmış 13534 cinayətin 91,7 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən istintaq və təhqiqatı aparılan hüquqazidd əməllər olub, onların 88,5 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 11,5 faizini isə ağır və xüsusilə ağır cinayətlər təşkil edib.

Əməliyyat-axtarış və istintaq fəaliyyəti sahəsində görülmüş birgə tədbirlər nəticəsində hesabat dövründə cinayətlərin açılması 82,4% təşkil edib, həmçinin daxili işlər orqanları ilə birgə keçirilmiş tədbirlər nəticəsində əvvəlki illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.

Həmçinin qeyd olunub ki, 3 iyul 2018-ci il tarixdə radikal dini baxışlara malik Yunis Səfərov və digərləri tərəfindən Gəncə şəhərində törədilmiş terror aktı, qəsdən adam öldürməyə cəhd, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər və sair faktlarla bağlı başlanmış cinayət işinin istintaqı peşəkarlıqla davam etdirilərək, ümumilikdə mütəşəkkil dəstənin 29 üzvünün Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilib, həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunub: "Bundan başqa, 10 iyul 2018-ci il tarixdə Gəncə şəhərində radikal dini yönümlü bir qrup şəxs tərəfindən zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə başlanmış cinayət işinin istintaqı davam etdirilərək, iş üzrə 61 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilib, onlardan 1 nəfər axtarışda olduğu dövrdə polis əməkdaşları tərəfindən zərərsizləşdirilib, 1 nəfər barəsində isə axtarış tədbirləri davam etdirilir. Ümumilikdə 2018-ci ilin noyabr ayından etibarən iş üzrə cinayəti törətdikdən sonra ölmüş təqsirləndirilən şəxs də daxil olmaqla 60 nəfər barəsində 8 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilib. 6 cinayət işi üzrə 44 şəxs barəsində ittiham hökmləri çıxarılaraq təqsirləndirilən şəxslər müxtəlif müddətlərə azadlıqdan məhrum etmə cəzalarına məhkum edilib, 16 nəfər barəsində 2 cinayət işi üzrə isə məhkəmə baxışı davam edir".

## Sahədə 20 qəpiyə alınan pomidor niyə Bakıda 1 manatdır?

**Bu il Bakıda pomidorun qiyməti ötən illərlə müqayisədə xeyli bahadır. Doğrudur, ötən ayla müqayisədə pomidorun qiymətində ucuzlaşma var, bu, onunla əlaqələndirilir ki, yerli məhsul yığımı başlayıb və bolluq yaranıb. Lakin buna baxmayaraq, yenə də pomidorun kiloqramı 1 manata satılır. Kəndli isə bildirir ki, min bir əziyyətlə əkib-yığdığı pomidoru yerində 20 qəpiyə verir. Bəs nə üçün pomidor bazarda 1 manat və daha yüksək qiymətlə satılır?**

"Yeni Müsavat"a danışan ekspert Natiq Cəfərli bildirib ki, pomidorun bahalaşmasının müxtəlif səbəbləri var: "Pomidor ilk növbədə əsasən ixrac məhsulumuzdur. Məhsulun qıt vaxtı ixracatın artmasına görə qiymət artımı yaşandı. İndi isə ötən ayla müqayisədə məhsul boldur. Lakin məsələ burasındadır ki, fermerlə bazarın əlaqəsi çox aşağı səviyyədədir. Fermerin bazara birbaşa çıxma imkanları kifayət qədər məhduddur. Fermer aylarla əziyyət çəkir, məhsul yetişdirir. Ancaq bazarla fermer arasında olan daşıyıcı şirkətlər daha çox pul qazanırlar. Hətta fermerlə bu şirkətlər arasında olan qazanc fərqi dəfələrlə ölçülür. Növbəti addım kimi fermerlərin iri market şəbəkələri ilə birbaşa müqavilə bağlamaları üçün imkanlar yaradılmalıdır. Onların bazara çıxma imkanları genişləndirilməlidir. Çünki Azərbaycanda bir neçə iri marketlər şəbəkəsi var və onların da hər biri özləri şirkət qurublar. Bu şirkətlər vasitəsilə fermerlərlə əlaqə qururlar. Bu da fermer üçün qiymətin xeyli dərəcədə aşağı düşməsinə və tarladan süfrəyə qədər qiymətin az qala 4 dəfə bahalaşmasına səbəb olur. Ona görə də elə şərait yaradılmalıdır ki, şirkətlər deyil, fermerlər özləri əlaqələr qura bilsinlər. Birbaşa müqavilə olarsa, bazarlardakı qiymətlərdə də sabitləşmə yarana bilər. Bu zaman fermer də daha çox qazanar və bu sahədə işlər görməkdə maddi maraqları da artar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

## Bakı polisi İrlandiya mətbuatında çıxan yazı ilə bağlı araşdırmalara başladı

**Bakı Şəhər Baş Polis İdarəsi İrlandiya mətbuatında dərc olunan "Dandolk" oyunçuları "Qarabağ"la qarşılaşma öncəsi qanunla üz-üzə gəlirlər" ("Dundalk players in Azerbaijan brush with the law ahead of Qarabag clash") adlı məqaləyə münasibət bildirib.**

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev Modern.az-a açıqlamasında deyib ki, "Dandolk" oyunçuları "Qarabağ"la qarşılaşma öncəsi qanunla üz-üzə gəlirlər" ("Dundalk players in Azerbaijan brush with the law ahead of Qarabag clash") sərlövhəli məqalədə iddia olunan hallar araşdırılır.

"İrlandiya mətbuatında dərc olunan məqalədən məlumatlıyıq. Müvafiq qorunan yerlər və obyektlər istisna olmaqla, paytaxtın küçə, park, xiyaban və meydanlarında foto-video çəkilişlərlə bağlı məhdudiyyət yoxdur. Polis tərəfindən paytaxtda ictimai asayişin təmin edilməsində qarşıya qoyulan vəzifələr yüksək əzm və peşəkarlıqla həyata keçirilir", E.Hacıyev bildirib.



## "Diqlas"ın yerində nə inşa ediləcək?

**Mart ayında yanğın baş verən "Diqlas" Ticarət Mərkəzinin sökünütsü yekunlaşıb. "Yeni Müsavat" xəbər verir ki, hazırda ticarət mərkəzinin yerləşdiyi ərazidə təmizlik işləri aparılır. Ərazi tamamilə hasara alınıb. Bununla yanaşı, ticarət mərkəzinin yerləşdiyi hissədə olan yeraltı piyada keçidi də qapadılıb. Əldə etdiyimiz məlumata görə, sentyabr ayına qədər ticarət mərkəzinin yerləşdiyi ərazidə abadlıq işləri görüləcək. "Diqlas"ın qalıqları tamamilə söküləcək.**

Hazırda ticarət mərkəzinin ətrafında fəaliyyət göstərən tikililərin də hamısı sökülüb. Onlara hər hansı bir maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Eyni zamanda "Diqlas"ın arxasında böyük bir sahədə piştaxta qurub, müxtəlif ucuz geyimlər satanlara da dövlət tərəfindən maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Lakin müşahidə etdik ki, bazarın yuxarı hissəsində yenidən piştaxta qurub ucuz geyimlər satırlar.

Yanğın nəticəsində zərər görən sahibkarlara İqtisadiyyat Nazirliyi tərəfindən müxtəlif yerlərdə, aylıq icarə haqqı ödəmədən obyektlərdə ticarətlə məşğul olma imkanı yaradılıb. İstəyən sahibkar bu imkandan yararlana bilər. Lakin sahibkarların əksəriyyəti ilə söhbətimiz zamanı onlar bildirdilər ki, əlavə iş qurmaq üçün əllərində heç bir vəsait yoxdur. Ona görə də yaradılan imkandan yararlana bilmirlər...

"Diqlas"ın binası söküldükdən sonra yerində nə tikiləcəyi barədə açıqlama verilməyib. Sadəcə olaraq, ticarət mərkəzinin rəhbərləri zərərçəkən sahibkarlarla söhbətləri zamanı bildiriblər ki, bura yenidən ticarət mərkəzi kimi fəaliyyət göstərəcək.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

## Bakı sakininə 500 avroluq saxta əsginaslar verən əcnəbi saxlanıldı

**Bakı sakinindən 8 ədəd 500 avroluq saxta əsginas götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən iyulun 29-da Bakı şəhər sakini Z.Paşayevdən 8 ədəd 500 avroluq saxta əsginas götürülüb.**

Görülən tədbirlərlə Z.Paşayevə həmin əsginasları vermiş bir əcnəbi vətəndaş saxlanılıb.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 204-cü (Saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma) maddəsi ilə cinayət işi başlanılıb.

# Həmkarlarından Fazil Mustafaya sərt cavablar-qalmaqal böyüyür

## Fəzail Ağamalı: "Dəfələrlə ona demişəm ki, dayan, etmə"

## Fərəc Quliyev: "Onu urvatdan salmaq cəhdləri yolverilməzdir"

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın görkəmli dövlət xadimi Şah İsmayıl Xətainin adına olan medalın ləğv edilməsi barədə çağırışından sonra yaranan qalmaqal səngimək bilmir. BAXCP sədrinin müavini Niyaməddin Orduxanlının onun müdafiəsinə qalxmasından və Moskva Azərbaycan İcmasının rəhbəri Şamil Tağıyevin deputatı sərt tənqid etməsindən sonra gərginlik daha da artıb.**

Həmkarlarının F.Mustafanın fikirləri ilə bağlı mövqelərini öyrəndik.

Ana Vətən **Partiyasının sədri Fəzail Ağamalı** "Yeni Müsavat"a kifayət qədər sərt danışdı: "Bir neçə il öncə Fazil bəyə bu barədə çox sərt cavab vermişəm. Tarixi faktlarla əsaslandırmışam ki, Şah İsmayıl Xətainin üzərinə bu şəkildə getmək Azərbaycan tarixini, özü də şərəfli tarixini təhqir etmək deməkdir. Belə mövqe Fazil bəy tərəfindən doğru deyil. O, təbii ki, ziyalıdır, yüksək intellekti var, məlumatlıdır. Amma tarixçi deyil. Onda tarixi təfəkkür yoxdur. Şah İsmayıl Xətaini Bütöv Azərbaycanın banisi kimi dəyərləndirmək və ona hörmət etmək lazımdır. Məncə, Fazil Mustafanın Xətaiyə münasibəti təriqətçilikdən irəli gəlir. Bəlli olduğu kimi, Fazil bəy bildiyim qədəri ilə kökü şiə olmasına baxmayaraq, Türkiyəyə gedib-gəldikdən sonra sünniliyi qəbul edib. Görünən odur ki, təriqətdən irəli gələn təriqət təəssübkeşliyidir ki, Fazil bəy hər zaman Şah İsmayıl Xətainin üzərinə gedir. Xətai Bütöv Azərbaycan dövlətinin banisidir. Müəyyən zamanda o, hakimiyyətdə olduğu illərdə Azərbaycan dilini dövlət dili elan edib. Diplomatik yazışmalarda rəsmi dil kimi dilimizdən istifadə olunub. Bu həmin dövr üçün çox ciddi bir hadisə kimi dəyərləndirilməlidir. Onunla bağlı Oqtay Əfəndiyevin, dəyərli həmkarımız, akademik Yaqub Mahmudovun ciddi araşdırmaları var. Bunu oxumaq lazımdır. Fazil bəy əgər tarixi öyrənmək istəyirsə, həmin tədqiqatlara müraciət edib, faktları öyrənə bilər. Bu, siyasət, konyunktura deyil, tarixdir. Faktiki olaraq Fazil Mustafa Şah İsmayılın üzərinə getməklə, Azərbaycan tarixinə böhtan atmaqla kifayətlənmir, onu təhqir edir. Bu yaramaz. Dəfələrlə ona demişəm ki, dayan, etmə. Sən Xətainin Azərbaycan tarixinə, xalqına vermiş olduğu töhfələrin milyonda birini həyatın boyu bundan sonra yaşasan da, verə bilməzsən. Çox təəssüf edirəm ki, Niyaməddin Orduxanlı da ona qoşulub. Moskvadakı soydaşımızı tanımıram. Onun da yazısını oxudum. O, Şah İsmayıl Xətai haqqında xoş fikirlər söyləyirsə, nəyə görə onu İranla bağlamaq lazımdır? İranın bura nə dəxli var? Bu, Azərbaycanın tarixidir. Ölkəmizin ərazisinin böyük hissəsi İranın tərkibindədirsə, burada Xətainin nə günahı var ki? Nə üçün onu və yaratdığı dövləti İrana bağlamaq lazımdır? İrandakı etnosların da tərkibində olduğu böyük dövləti yaradan Şah İsmayıldan sonra Nadir Şah bu dövlətin sərhədlərini genişləndirdi. XX əsrin 20-ci illərinin əvvəllərinə qədər həmin İran ərazisində dövləti idarə edən türklər olublar. Sonradan böyük güclər türk dövlətlərinin bağlılığını qırmaq üçün İran dövlətini yaratdılar. Hazırda orada soydaşlarımızın hər addımbaşı hüquqları pozulmaqdadır. Bu dövlətlə Şah İsmayılı eyniləşdirməyin özü nadanlıqdır, savadsızlıqdır, tarixdən bixəbər olmaqdan irəli gəlir. Gedin tarixi öyrənin, lütfən".


Fəzail Ağamalı


Fərəc Quliyev

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyevin də mövqeyi birmənalıdır:** "Bu məsələni qətiyyətlə pisləyirəm. Nəinki Şah İsmayılın, keçmişə gedib bir sərkərdənin üzərinə getməklə onu urvatdan salmaq cəhdləri yolverilməzdir. Xətai böyük bir Bütöv Azərbaycan qurmuş dövlət xadimidir, şairdir. İlk dəfə olaraq türk dünyasında türk imperiyaları arasında sarayda dili türk dili edən birisidir. Dünyada Azərbaycanı tanıdan bir imperiyanın qurucusudur. Ona qarşı hər tərəfdən hücumların edilməsi həm mənasızdır, həm də əhəmiyyətsizdir. Biz tariximizdən qürur duymaq, dərs götürmək əvəzinə bu cür davranmalı deyilik. Bu gün bizim üzərimizə çox ciddi vəzifələr düşür. 480 min kvadrat kilometrlik Azərbaycandan 60 min kvadrat kilometri əlimizdə saxlayıb 3 milyon ermənin işğalı altında olan torpaqlarımızı qaytara bilmiriksə, bunun haqqında danışmalıyıq. İndi biz Xətai haqqında fikir söyləyirik. Türkiyədə səfəvilər dövrünü, həmin dövləti qəbul etməyən bir çete var idi. Cəhd edirdilər ki, bu Azərbaycan dövlətini gözdən salsınlar. Hətta türk imperiyaları sırasına səfəviləri salmırdılar. Bununla bağlı rəhmətlik Nihat Çətinqaya hətta məhkəməyə müraciət etmişdi. O, "Qızılbaşlar" əsərində də bu məsələyə toxunmuşdu. Həsən Həsənovun Şah İsmayıl haqqında əsərini oxumuşam. Ramiz Mehdiyevin bu haqda maraqlı bir təhlili var idi. Dilavər Əzimli və başqalarının da bu haqda münasibətləri mövcuddur. Görürəm ki, qərəzli şəkildə heç bir əsas olmadan qürur mənbəyimiz olan yerlərə hücum edilir. Bu təkcə Şah İsmayıl Xətaiyə aid deyil. O, dünyasını dəyişmiş bir adamdır, bizim tariximizdir. Millət öz tarixi, yaratdıqları və qələbələri ilə tanınır. Böyük dövlət qurmuş bu kişini başımız üzərində saxlamalıyıq. Onun adına nəinki medal, başqa mükafatlar da olmalıdır. Belə məsələləri bir daha bəyan edirəm ki, sərt şəkildə qınayıram. Gələcəyə baxmalıyıq. Üzərimizə düşən problemlərin həlli yollarını axtarmalıyıq. Şah İsmayılın üzərinə gedənlər Dağlıq Qarabağın geri alınması istiqamətində təkliflərlə çıxış etməli, cəmiyyəti səfərbər etməlidirlər. Bu cür davranışların doğru olmadığı göz önündədir. Biz öz qəhrəmanlarımıza, dövlət qurucularımıza sahib çıxmadıqca, iş o yerə çatır ki, Çinin Şan dağında 300 türk piramidasının üzərinə torpaq töküb meşələr salıblar. Orada Oğuz Xaqanın heykəli var. Bir türk tarixi orada yatır. Mumiyalar da var. Hələ birinci mərtəbəyə düşməyə imkan vermirlər. Dünyanın ən hündür piramidaları olan türk piramidaları o dağlarda yatır. Çin sərhədindən tutmuş Macarıstanın sonuna qədər bir türk imperiyası qurmuş türklər haqqında beləmi danışmaq olar? Şah İsmayıl Xətai türk tarixini, ənənəsini, İslam-türk davranışlarını ortaya qoyub. Yanlışmı edib? Avropa İttifaqını xristian ənənələri ilə qurublar. Amma Şah İsmayıl türk fəlsəfəsi və İslam ənənələri ilə dövləti qurdu. İndi biz bu ideologiyanı müdafiə etməyək? Gözüqırpıq çinlilər qeyd etdiyim kimi, görün nələr edirlər. Tariximizi məhv etməməliyik. Tarix bizi elə günə qoyar ki, biz tarixə çevriləndə qəbirlərimizi nəinki axtarmazlar, axtararlar ki, dağıtsınlar. Bunları nəzərə almaq lazımdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Rüstəm İbrahimbəyov yenidən Bakıda


Şeyx Əbdül

## Şeyx Əbdül: "Rüstəmin fəaliyyəti rəsmi statusu olan Kino İttifaqını parçalamaqdan ibarətdir"

**Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rüstəm İbrahimbəyov Bakıdadır. Bu məlumatı qurumun katibi Əli İsa Cabbarov "Yeni Müsavat"a açıqlamasında təsdiqləyib. AKİ katibi bildirdi ki, 2 avqust Milli Kino Günü ilə bağlı avqustun 1-də tədbir keçiriləcək, qaliblər mükafatlandırılacaq və R.İbrahiməyov da orada iştirak edəcək. "Avqustun 1-də ənənəvi kino mükafatı qaliblərə təqdim olunacaq.**

Bu il rejissor Cahangir Zeynallı, xalq artisti Şükufə Yusifova, rejissor Murad İbrahimbəyov, gənc aktrisa Zülfiyyə Qurbanova qaliblərimizdir.

Eyni zamanda kino günü Kino Evinin açılışını elan edəcəyik. Ertəsi gün, yəni avqustun 3-də artıq ilk film göstəriləcək. Elmar İmanovun Rotterdam festivalında qalib olmuş "Mövsümün sonu" filmi nümayiş ediləcək".

**Ə.İ.Cabbarov qeyd etdi ki, aki.az İttifaqın rəsmi saytını da açıq elan edəcəklər:** "Kinomuzun problemləri ilə bağlı demək olar ki, dinamika və kəmiyyət var, lakin bunu keyfiyyətə və inkişafa keçirmək qarşıda duran məqsədlərdəndir. Bunun üçün vacib amil peşəkarların həmrəyliyidir. Sənət, kino, milli maraqlar ətrafında peşəkarların birliyi kinomuzun inkişafının qarantıdır. İttifaqda son durumla bağlı deyə bilərəm ki, hökumət tərəfindən Kinematoqrafçılar İttifaqına maliyyə dəstəyi göstərilməkdədir".

AKİ katibi dedi ki, hazırda ittifaq kino tədbirinə hazırlaşır, eləcə də Kino Məktəbinin işləri ilə məşğuldur. Onun sözlərinə görə, R.İbrahimbəyov bayramdan sonra da bir müddət Azərbaycanda olacaq.


Rüstəm İbrahimbəyov

**Əməkdar incəsənət xadimi, rejissor Şeyx Əbdül Mahmudbəyli "Yeni Müsavat"a bildirdi ki, bu gün kino xadimlərinn ehtiyacları çoxdur. Onun sözlərinə görə, onların aldıqları qəpik-quruş kinodandır:** "Çəkiliş qurtardısa, pul da yoxdur. Bu gün həmin çətinlikləri prezident kompensasiya edir, maliyyə ayırır, evlər, təqaüdlər verir, yəni dövlət dəstəyi göstərir. Biz inamla gözləyirik ki, kinomuza böyük qayıdış olacaq, peşəkarlar yenə gələcək, kino yerini bərpa edəcək.

Çünki kino xalqın tarixidir, mədəniyyətin təbliğidir, dövlətin ideologiya silahlarından biridir. "Nəsimi", "Yeddi oğul istərəm" filmləri dünyanın 138 ölkəsində nümayiş olunub".

Şeyx Əbdül prezidentin kinoya sonuncu dəfə ayırdığı 5 milyon manat dəstəyi gözəl təşəbbüs sayır: "Lakin bu pula 2-3 yaxşı kino çəkmək olar.

Amma digər sahələr də var, o səbəbdən maliyyə çox bölünür. Ona görə pay-pəy edəndə "ucuz ətin şorbası olmur". Amma inanıram ki, bu da düzələcək".

**Ölkədə iki kino ittifaqının olmasına gəlincə, Şeyx Əbdül "od püskürdü". Onun fikrincə, R.İbrahimbəyov Azərbaycan kinosuna xəyanət edib:**

"Qurultay çağırmadan getdi siyasətə qoşuldu. Qurultayın razılığı olmadan prezident olmaq istədi. Oranı da yarımçıq qoyub ölkədən getdi. Sonra getdi "Qafqaz üçlüyü" kimi eybəcər film çəkdi.

Rüstəmin böyük sənətkar olmasını kimsə inkar edə bilməz. Amma etdiyi xəyanətlərin cavabını verməlidir. İki kino ittifaqı mümkün deyil.

Rəsmi statusu olan, təsdiqlənmiş, dövlət dəstəyi olan bir kino ittifaqı var. Gəlsinlər, qoşulsunlar, fəaliyyət göstərsinlər. İbrahimbəyov hansı mənəvi haqla anarxiya yaradır? Onun ətrafına yığılanlara da ar olsun. O kimdir ki, kinonu bərpa eləsin? Özfəaliyyət bir işdir. İttifaqı dağıdıb, atıb qaçıb, indi yenə qayıdır. 82 yaşı var, qoca kişisən, otur evində, ssenarini yaz, filmlərini çək".

**Müsahibimiz bildirdi ki, İbrahimbəyovun çıxışlarında Azərbaycanın maraqlarına aid bir cümlədə yoxdur:** "Məscidin qapısı açıq olanda da gərək adamın həyası ola. İki kino ittifaqı necə ola bilər? Allah Rəsulzadəyə, Elçibəyə rəhmət eləsin. Azərbaycanın bir "Yeni Müsavat" adlı qəzeti var.

Biri gəlib eyni adla qəzet açsa hansı reaksiyanı verərsiniz? Rüstəm, sən qaçmısan, xəyanət eləmisən, təzədən gəlib hansı haqla iddia edirsən?

Onun bu fəaliyyəti rəsmi statusu olan kino ittifaqını parçalamaqdan ibarətdir. Birləşmək istəyirlərsə, bir kino ittifaqı var, gəlsinlər, qoşulsunlar".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019

# Ermənistanın Qazax təxribatı - ABŞ-ın Azərbaycana yardımını əngəlləmək planı?

## İşğalçı ölkə dövlət sərhədimiz boyunca gərginlik yaradır, ancaq proseslərin arxasında üçüncü qüvvənin olduğu iddiası da var; ekspertlərdən çağırışlar

**Son günlər Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu istiqamətində gərginlik nəzərəçarpacaq dərəcədə artıb. Ötən həftədən başlayaraq düşmən ölkə yenidən təxribatları intensivləşdirib. Azərbaycan isə bu təxribatların cavabını artıqlaması ilə verməkdədir. İyulun 27-də və 28-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu istiqamətindən keçən hissəsində Dövlət Sərhəd Xidmətinin mövqeləri düşmən tərəfdən atəşə tutulub. Cavab atəşi ilə düşmən ordusunun iki əsgəri yaralanıb. Ermənistan XİN dərhal bu faktlarla əlaqədar ATƏT-in Minsk Qrupu ölkələrinə müraciət edib. Rəsmi Bakı isə bəyan edib ki, baş verənlərə görə cavabdehliyi məhz İrəvan daşıyır.**

Ermənistan ordusunun sərhəd boyunca hərəkətə keçməsinin səbəbləri barədə müxtəlif fikirlər var.

**Deputat Rasim Musabəyov modern.az-a açıqlamasında belə deyib:** "Düşünürəm ki, onların bu aktivliyinin səbəbi Amerika Konqresindəki erməni lobbiçilərinin ABŞ-ın Azərbaycanın sərhəd qüvvələrinə genişmiqyaslı (təxminən 100 milyon dollar) yardımını dayandırması üçün bəhanə yaratmaqdır". R.Musabəyov Ermənistanın bu cəhdlərinin puç olacağını qeyd edib: "Azərbaycanın quruda, dənizdə və hava sərhədlərində nəzarəti gücləndirməsi ABŞ-ın milli maraqlarına uyğundur. Ermənilərin intriqalarını oxumaq asandır və çətin ki, Amerika belə təxribatlara məhəl qoysun".



**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, düşmənin hansı məqsədlə cəbhə boyunca təxribatlara əl atmasına əhəmiyyət vermədən onun cavabını vermək lazımdır: "Ermənistan ordusunun yalnız Qarabağ istiqamətində deyil, bütün təmas xətti boyunca problemlərini artırmaq lazımdır. Bunun nəticəsidir ki, Ermənistan ordusunun baş qərargah rəisi Artak Davtyan sərhədin Qazax istiqamətinə baş çəkmək məcburiyyətində qalıb. İyulun 27-də və 28-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu istiqamətindən keçən hissəsində düşmən ordunun iki əsgəri yaralanıb. Erməni general sərhəddə əməliyyat şəraiti ilə tanış olub, mühəndis işlərinin görülməsi və mövqelərin möhkəmləndirilməsi barədə göstərişlər verib". **E.Şahinoğlu digər məqamı da qeyd etdi:** "Bu arada, Ermənistanın müdafiə nazirinin müavini Qabriel Balayan sərhəddəki gərginliyi belə izah edib ki, hər iki tərəf yay aylarından istifadə edərək təmas xəttinə yaxın ərazilərdə mühəndis qurğularının gücləndirilməsinə çalışır və ona görə də ölümlə və yaralanmalarla nəticələnən toqquşmalar qeydə alınır. Bu yanaşmada həqiqət payı var. Ancaq məsələ yalnız mövqelərin gücləndirilməsiylə əlaqəli deyil. Ermənistan hakimiyyəti anlamalıdır ki, işğal davam etdikcə onların problemi yalnız Dağlıq Qarabağda olmayacaq, Qazax və Tovuzdan başlayaraq, Naxçıvana qədər sərhəddə onlara qarşı təzyiq artacaq. Bu, günün reallığıdır. Əgər Rusiya Azərbaycana müharibə yolu ilə torpaqları azad etməyə imkan vermirsə, başqa yol lokal təzyiq və harada mümkündürsə, irəliləmək imkanlarını hərəkətə gətirməkdir".

Bəzi ehtimallara görə, əslində gərginliyi tətikləyən Ermənistanın himayədarı Rusiyadır. Belə ki, Moskva ABŞ-ın regiona hansısa formada girişini əngəlləməkdə israrlıdır və Cənubi Qafqazı özünün maraq dairəsinə daxil edib. Eyni zamanda Azərbaycana hərbi texnika, silah-sursat və digər ləvazimatlar satmaqda maraqlı olan Moskva istəmir ki, ABŞ milyonlarla dollar dəyərində yardımı Azərbaycana ötürsün. Bu mənada sərhədin möhkəmləndirilməsi layihəsini məhz sərhəddə gərginlik yaratmaqla pozmağa çalışır. Hər halda, Azərbaycana hərbi yardımları qadağan edən 1992-ci ilin 907-ci düzəlişi unudulmayıb.

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı isə "Yeni Müsavat"a açıqlamasında digər məsələyə diqqət çəkdi:** "Bir müsahibədə də demişdim ki, Ermənistana hər gün əsgər meyiti getməlidir. Onlar ölkələrində rahat nəfəs almamalıdırlar. Başqasının torpağını işğal edib onun üstündə oturmağın baha başa gələcəyini anlamalıdırlar. Gərginliyin davam etdirilməsi indiki halda siyasi cəhətdən də Azərbaycanın faydasınadır. Qoy elə bilsinlər ki, bu gərginlik Amerikanın ayırdığı vəsaitlə əlaqəlidir və daha çox təşviş keçirsinlər". **Q.Çaxmaqlı da hesab edir ki, bu gərginliyin həqiqətən Amerikanın sərhədlərin möhkəmləndirilməsi ilə bağlı atdığı addımla müəyyən qədər bağlılığı olmamış deyil:** "Amerikanın İranla bağlı apardığı siyasətdə həm Ermənistanın, həm də Azərbaycanın rol alacağı şübhəsizdir. ABŞ bu addımla nəbzi yoxlayır. Sərhəddəki gərginlik buna reaksiyadır və Rusiya istəmir ki, bu məsələlərdə Azərbaycan vasitə olsun. Rusiyanın daha hansı sürprizləri olacaq - qarşıdakı günlərdə bunu görəcəyik. Bütün Ermənistan sərhədləri boyunca gərginliyin olması Ermənistanın özündə bir təşviş yaradırsa, biz bunu davam etdirməliyik".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

# Ağ Evin müharibə "qırğısı" Con Bolton kimdir?

## Trampın yanında olub onun "saqqızı"nı oğurlaya bilməyən "müharibə adamı", gizli islamofob haqda bilmədiklərimiz...

**ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton sərt xətt tərəfdarı hesab olunur. Bolton xüsusən də İran hakimiyyətinə qarşı kəskin fikirlərinə görə xarici işlər naziri Cavad Zərif sosial media üzərindən prezident Trampa müraciət edərək Boltonun "müharibəyə susamışlığını" rədd etməyə çağırıb.**

Zərif twitterdə yadığı statusunda Trampın "İran heç bir savaşda qalib gəlmədi, ancaq heç bir danışıqlarda da uduzmadı" fikrinə cavab olaraq "iranlılar min illərdir bütün işğalları geridə qoydu" yazıb. Eyni zamanda o, milli təhlükəsizlik müşaviri Con Boltonun 2017-ci ildə eyni ifadələrdən istifadə etdiyi məqaləsinin fotosunu paylaşaraq Trampın səhv yola yönləndirildiyini qeyd edib.

**Sitat:** "Donald Tramp, "B qrupu"nun saxta tarix və müharibəyə susamışlığını rədd et. Diplomatiya sağlam düşüncədir, gücsüzlük deyil".



Qeyd edək ki, ABŞ siyasi dairələrində "şahin" qanadın nümayəndəsi olan Con Bolton ABŞ-ın İraqı işğalının "memarlarından" biri hesab olunur. Bolton habelə Corc Buşun prezidentliyi dövründə ABŞ-ın BMT-dəki səfiri işlədiyi vaxtlardan İrana qarşı sərt çıxışları ilə məşhurdur. Tramp hakimiyyətə gəldikdən sonra isə Bolton tezliklə Ağ Evə dəvət olunub. 2018-ci ilin əvvəlində Bolton prezident Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri təyin olunub. Hələ müşavir təyinatından bir neçə ay əvvəl Bolton İran hakimiyyətinə qarşı silahlı mübarizə aparan "Xalqın Mücahidləri" təşkilatının Parisdə keçirilən konqresinə qatılıb və burada etdiyi çıxışında İran inqilabının 40 ilinin tamam olmayacağını deyib.

ABŞ-İran münasibətlərinin ötən ilin mayından pisləşməsinin əsas memarlarından biri də Bolton sayılır. İsraillə yaxşı əlaqələri olan Bolton bu ilin mayında Oman körfəzində vurulan tankerlərə görə İranı ittiham etmişdi.

Maraqlıdır ki, prezident Tramp Boltonun fəaliyyətindən razı olsa da, İranla münasibətlərin pisləşməsinə görə onu günahlandırıb. Bir qədər əvvəl Tramp bildirmişdi ki, Bolton çox yaxşı çalışsa da, Yaxın Şərq mövzusunda onunla tez-tez anlaşılmazlıqlar yaşayır.

Xarici işlər naziri Zərif isə Boltonu Trampın "B dəstəsi" adlandırır. Söhbət baş hərfində B olan 4 nəfərdən - Bolton, Benyamin Netanyahu, bin Salman və bin Zayeddən (BƏƏ vəliəhdi - K.R.) gedir. Zərif hesab edir ki, İranla müharibəni istəyən bu 4 nəfərdir.

ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri 1948-ci ildə ABŞ-ın Merilend ştatının Baltimor şəhərində dünyaya gəlib. Yel Universitetində hüquq təhsili alıb. 1980-ci illərdə Vaşinqtona köçən Bolton Ədliyyə Nazirliyi və Dövlət Departamentində müxtəlif postlarda çalışıb. 1982-83-cü illərdə Reyqan kabinetində, həmçinin ata və oğul Buşların komandasında yer alıb. 2001-ci ildə Corc Buş komandasına daxil olub və 2003-cü il İraqa hərbi müdaxilənin əsas dəstəkçilərindən biri olub. 2005-ci ilin avqustundan 2006-cı ilin dekabrına qədər ABŞ-ın BMT-dəki daimi nümayəndəsi olub. Və bu zaman sərt çıxışları ilə məşhurlaşıb. Daha sonra Respublikaçılar Partiyasına yaxın "beyin mərkəzləri"ndə çalışıb, İsraillə dostluq mərkəzinin aparıcı şəxslərindən olub, eyni zamanda FOX telekanalında şərhçi kimi fəaliyyət göstərib.

Bolton açıq şəkildə İran, Şimali Koreya, Liviya, Suriya kimi ölkələrdə ABŞ-ın hakimiyyət dəyişikliyi həyata keçirməsini müdafiə edir. 2009-cu ildə isə Bolton İsrail-Fələstin münaqişəsinin həlli üçün Qəzzani Misirə, İordan çayının qərb sahili ərazilərinin isə İordaniyaya verilməsini təklif etmişdi. Eyni zamanda Bolton İranı "dayandırmaq üçün bombalamağı" təklif edib və Obamanın İranla nüvə anlaşmasını açıq şəkildə tənqid edib.

Bolton islamofob fikirləri ilə də tanınıb. 2016-cı ildə qatıldığı bir konfransda İslamın Qərb sivilizasiyası üçün bir təhdid olduğunu və müsəlmanların ABŞ-da gizli şəkildə təşkilatlandığını, hətta Obamanın da gizli müsəlman olduğunu bildirib. Yenə həmin il yazdığı kitabında ABŞ qarşısında ən böyük təhlükənin terror təşkilatları olduğunu, terrorizmin isə İslam dünyası ilə bağlı olduğunu bildirib.

Con Bolton 2018-ci ilin aprelində rəsmən ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviridir. Bu dövrdə o, İsrailə səfər edib, İrana qarşı blok formalaşdırmağa çalışıb. Ancaq hələlik Bolton və Pompeonun müharibə cəhdləri o qədər də effekt vermir. Çünki prezident Tramp həddən artıq praqmatik və ölkəsinin cari maraqlarını daha çox düşünən siyasətçidir. Əfqanıstan və İraq kimi ağır müharibələrdən sonra İranla savaşa girmənin ABŞ-a zərbə ola biləcəyini anlayır.

Ancaq Boltom islamafob çıxışları ilə tanınsa da, onun körfəz ərəb ölkələri ilə münasibətləri o qədər də pis deyil. Tez-tez bu ölkələrə səfər edən Bolton yüksək rütbəli şəxslərlə görüşlər keçirir, konfranslarda çıxış edir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Tahir Kərimli varlanması haqda iddialardan danışdı

## Daha bir deputatın xaricdəki biznesi haqda məlumatlar yayılıb

**Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri Tahir Kərimli 250 min manatlıq avtomobilinin olması ilə bağlı iddiaya münasibət bildirib. T.Kərimli "Report"a açıqlamasında deyib ki, bu iddianın əsası yoxdur. Deputatın sözlərinə görə, sürücüsünün idarə etdiyi "BMW" markalı avtomobil 2004-cü il istehsalıdır:**

"Bu avtomobilin qiyməti 250 min manat necə ola bilər?! Əsası olmayan belə fikirləri mühacirətdə yaşayan biri tirajlayır. Onun qeyri-ciddi açıqlamalarına reaksiya vermək fikrim yox idi. Hətta bir dəfə demişdi ki, Tahir Kərimli İsmayıllıda işlədiyi vaxtda bir qadını üç dəfə ekspumasiya etdirib... İndi də daha bir yalan tirajlayıb. Bir başqası da demişdi ki, Tahir Kərimlinin qardaşına tikinti şirkəti hədiyyə edilib. Təəssüf edirəm ki, bəzi insanlar belə yalanlara inanırlar. Deyir ki, Tahir Kərimlinin əvvəllər heç nəyi yox idi, indi isə 200-300 min manatlıq avtomobil idarə edir. Əksinə, sovet dövründə qardaşlarımın, yeznələrimin, özümün ən müasir avtomobillərimiz var idi. Amma indi nə qardaşlarımın, nə övladlarımın avtomobili var. Oğlum dostunun "Niva" markalı avtomobilini idarə edir. Heç nəyim yoxdur, hər şeyimi itirmişəm, amma əvəzində dövlətimiz azad, müstəqil olub. İyirmi iki il maaş almamışam, qohumlarımın da bir hissəsi az müddət öncə müvəqqəti işlə təmin olunub. İxtiyarımda olan avtomobil Vəhdət Partiyasının qeydiyyatındadır. Bahalı avtomobilim də ola bilər, buna görə kimsə məne söz deyə bilməz. Məmur deyiləm ki?! Bahalı avtomobilim yoxdur, təki olaydı... Açığı, avtomobili yeniləmək fikrim var, bu da təbii ki, imkana baxır... İnşallah, yeniləyəcəyik. Yalan informasiyalarla insanları gözdən salmaq olmaz. Biz deputat olmamışıq ki, özümüzə hansısa şəraiti quraq... Əməkhaqqımızı alırıq, vətənimizə, seçicilərimizə xidmət edirik".

"Yeni Müsavat" xəbər verir ki, Tahir Kərimli 5 mart 1956-cı ildə Ağsuda doğulub. 1973-cü ildə Ağsu şəhər 1 saylı orta məktəbi, 1983-cü ildə ADU-nun hüquq fakültəsini bitirib. Çilingər, təsərrüfat müdiri, hüquq məsləhətçisi, məhkəmə iclas katibi, hakim əvəzi, İsmayıllı rayon xalq hakimi, Ali Məhkəmə sədri işləyib. 1990-1995-ci illərdə Ali Sovetin deputatı olub. 1990-cı il 20 Yanvar qətliamına görə Sov.İKP üzvlüyündən imtina etdiyinə və SSRİ prezidenti M.Qorbaçova ölüm hökmü çıxardığı üçün xalq hakimi vəzifəsindən kənarlaşdırılıb, 1991-ci ildə vəzifəsinə bərpa edilib. 1998-ci ildən Vəhdət Partiyasının sədridir. AXC 2-ci Proqram və Nizamnaməsinin, Vəhdət Partiyasının Proqram və Nizamnaməsinin müəlliflərindən biridir. 5-ci çağırış Milli Məclisin deputatıdır.

Dörd övladı və dörd nəvəsi var.



Araşdırmaçı jurnalist Cavanşir Həsənli deputat Xanlar Fətiyevin Avropadakı biznesi ilə bağlı maraqlı məlumatlar əldə edib. Bakupost xəbər verir ki, C.Həsənli növbəti araşdırma yazısında Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri olan Xanlar Fətiyevin Berlində, Ştutqartda şirkətlər açıb, 3 milyon avrodan artıq yatırım qoyduğunu iddia edib.

Araşdırmaçı iddia edir ki, Gəncə Avtomobil Zavodunun rəhbərinin biznesi Maltaya və İspaniyaya qədər uzanır.

Minskdə isə Xanlar Fətiyevə məxsus avtomobillərin icarəsi və taksi xidməti ilə məşğul olan şirkətləri var. Moskva və Kiyevdə də şirkətin avtomobillərin icarəsi xidməti göstərən filialları var.

Paytaxtdakı "Belaruski" supermarketlərinin də deputata məxsus olduğu iddia olunur.

Xanlar Fətiyev 15 yanvar 1972-ci ildə Bakı şəhərində doğulub. 1988-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin sənaye və mülki tikinti fakültəsinə daxil olub. İş fəaliyyətinə 1988-ci ildə "Azərtransqaz" nəzdində 2 saylı səyyar mexaniklәşdirilmiş dəstədə fəhlə kimi başlayan deputat 1990-1991-ci illərdə "Betonçu" kooperativində iqtisadiyyat və istehsalat üzrə mühəndis, 1992-1994-cü illərdə isə həmin kooperativdə sədr vəzifəsində işləyib.

O, 1994-1997-ci illərdə "Elruz" kiçik müəssisəsində sədr, 1997-2003-cü illərdə "Avestas" firmasının baş direktoru, 2003-2004-cü illərdə "Aznur" MMC-nin baş direktoru vəzifələrində çalışıb. 2004-cü ildən bu günə kimi isə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri vəzifəsində işləyir. 39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsindən Milli Məclisə deputat seçilib. Milli Məclisin təhlükəsizlik və müdafiə komitəsinin üzvüdür.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Müxalifət düşərgəsini xaricdən kim qarışdırır-üç ilginc şərh

## Qüdrət Həsənquliyev, baş nazirin müavininin mövqeyi və agentliyin təhlili...

**"Əli Kərimli yanvarın 19-da keçirilən sonuncu mitinqdə kütləyə müraciət edib deyir "Biz bu gün ona görə dövlət və hakimiyyət orqanlarının üzərinə yürüş etmirik ki, sayımız azdır". Yəni bunun izahı o deməkdir ki, sabah meydana indikindən 2 dəfə çox insan yığışsa, Prezident Administrasiyasına, Milli Məclisə, dövlət hakimiyyət orqanlarının üzərinə yürüş edəcəyik. Bu da istər-istəməz razılaşdırılmayan aksiyaya, kimlərinsə xəsarət almasına, kimlərinsə həbsinə səbəb olacaq. Mümkündür ki, marağı olan hansısa qüvvələrin təxribatçı əməllərinin nəticəsi olaraq insan ölümü də baş versin".**



**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev** teleqraf.com saytına müsahibəsində belə deyib. Deputat fikrini davam etdirərək bunları söyləyib: " Üstəlik, belə qarşıdurmalardan sonra hüquq pozuntusu törədən şəxslərin cinayət hüquqi təqib edilməsi, onların məhbəsə atılması kimi addımlar da əslində ölkədə demokratik proseslərin inkişafına töhfə verməyəcək, əksinə, geri atacaq. Bax, bu kimi təhlükələri nəzərə alıb, daha böyük təhlükələri önləmək məqsədilə hansısa azadlıqların məhdudlaşdırılması əslində imkan verir ki, tədricən ölkədə daha məsuliyyətli, daha ciddi və daha hazırlıqlı, populizmdən uzaq siyasətçilər nəsli formalaşsın. İndi yeni siyasətçilər nəsli formalaşır. Bunu ola bilsin ki, çoxları görmür. Siyasi azadlıqların məhdudlaşdırıldığını deyən şəxslər bir azdan görəcəklər ki, nə qədər müasir siyasətçilər yetişib və onlar dinc yolla ölkəmizi xeyli irəli aparacaqlar".

**Q.Həsənquliyev deyib ki, indi müxalifət düşərgəsi iki hissəyə bölünüb:** "Bir qisim hesab edir ki, müxalifətin işi yalnız hakimiyyəti tənqid etmək olmalıdır. Məncə, bu, kökündən yanlışdır. Müxalifətin işi iqtidarın səhvlərini göstərmək, hətta xarici siyasətlə bağlı milli maraqlar naminə iqtidarın deyə bilmədiklərini demək olmalıdır. Əgər milli mənafeyə uyğun olan uğurlu addım atılıbsa və iqtidar buna görə xarici təzyiqlərlə üzləşirsə, müxalifət iqtidara dəstək verməlidir.

Məsələn, Ərdoğanla Kılıçdaroğlunun münasibətlərinin sərtliyinə baxın. Amma Türkiyə Rusiyadan S-400 sistemləri alanda Kılıçdaroğlu Ərdoğanı müdafiə etdi, bildirdi ki, bu, doğru qərardır, çünki zamanında biz istəsək də, ABŞ "Patriot" sistemlərini Türkiyəyə satmadı. Siz görmüsünüz ki, bizim radikal düşərgədə kimsə bu cür davransın? Radikal düşərgə bunu etməsə də, müxalifətin böyük kəsimi bu gün iqtidarın müsbət addımlarına pozitiv yanaşır. Bu, artıq inkişafdır, proses gedir və əminəm ki, bunun nəticəsi də olacaq. Odur ki, Azərbaycanı Türkmənistanla müqayisə etmək və ya idarəetmənin çöküdüyünü iddia etmək yersizdir. Əgər islahatlar hansısa xarici və daxili təhdidlər nəticəsində dayandırılacaqsa, kadr islahatları davam etməyəcəksə, iqtisadiyyat və bank sektoru yalnız neftdən asılı vəziyyətdə qalacaqsa, sözsüz ki, cəmiyyətdə hər zaman narazılıq və gərginliklər üçün təhlükə qalacaq.

Düşünürəm ki, iqtidarlı, müxalifətli Azərbaycan cəmiyyətinin müdrikliyi çatacaq ki, lazımi addımlar ataq, ölkəmiz gələcəkdə belə təhlükələrlə üzləşməsin".

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov "Azərbaycanın parlaq gələcəyi və müxalifətin xəyal qırıqlığı" adlı məqalədə də müxalifət düşərgəsiin durumuna toxunub. YAP funksioneri Azərbaycanın uğurlarını sadalayaraq düşmənlərin buna qısqanc münasibət bəslədiyini qeyd edib:** "Ölkəmizi, deməli, bizim hamımızı gözləyən parlaq gələcək xalqımızı və dostlarımızı sevindirir, ruhlandırır və daha böyük uğurlara səfərbər edir. Düşmənlərimiz və gözü götürməyənlər isə məyus olur, paxıllıq edir, Azərbaycana qarşı məkrli planlar hazırlayır.

Düşmənlərin məyus olması haradasa başadüşüləndir. Başa düşülməyən müxalifətin məyus olması, xəyal qırıqlığı sindromunu yaşamasıdır. Onların Azərbaycanın möcüzədən fərqlənməyən uğurlarını görməzliyə vurmasını bir kənara qoyaq, lakin ədalət hissini büsbütün unudub ölkəmizə qarşı böhtan atanlarla bir sırada dayanmaları bağışlanan deyil. Öz dövlətinə, öz ölkəsinə, öz xalqına böhtan atmaqla seçici rəğbətini qazanmaq heç kimə müyəssər olmayıb. Yalan, böhtan, şayiələr siyasi mübarizənin ən uğursuz vasitələridir. Bu yolu seçənlər, tarixin göstərdiyi kimi, seçici rəğbəti əvəzinə nifrət qazanır, ayrı-ayrı xarici dairələrin əllərində müvəqqəti vasitəyə çevrilir, nəticədə bütünlüklə iflasa uğrayırlar".

**"Turan" agentliyinin isə ""İnqilab" çağırışlarından kim qazana bilər?" adlı analitik yazısında maraqlı mətləblərə toxunulub. Sitat:** "Son günlər Azərbaycandan kənarda yaşayan bəzi şəxslər sosial şəbəkələrdən intensiv olaraq canlı yayında xalqı "inqilaba" çağırır. Eyni zamanda müxalifətin də bu "inqilab"a dəstək verməsinin vacibliyini vurğulayırlar. "İnqilab" çağırışlarına tənqidi münasibət bildirən şəxslərə qarşı isə aqressiv münasibət sərgiləyir, onları təhqir edirlər. "İnqilab" çağırışları edənlərin mütləq əksəriyyətinin fəaliyyətini və şəxsiyyətini incələyərkən çox aydın şəkildə görünür ki, bu şəxslər ictimai-siyasi fəaliyyətdən tamamilə uzaq fərdlərdir. İstisnalar olsa da əsasən ölkədəki siyasi proseslərdən, siyasi şəraitdən, sosial mühitdən və siyasi təşkilatlanmadan xəbərsizdirlər. Ölkədə heç vaxt siyasi fəaliyyət göstərməyiblər". Təhlildə yekun olaraq bildirilir ki, cəmiyyət bu kimi "inqilab" çağırışlarının olduqca zərərli sosial-psixoloji və siyasi nəticələr doğura biləcəyini nəzərə almalıdır.

❑ **"Yeni Müsavat"**



# Simon Bolivarı “neprav” çıxaran varmı?

Samir SARI

**Bilmirəm uzaq Cənubi Amerikada, konkret desək, Venesuelada, Kolumbiyada, Boliviya və Peruda necədir, orda da Simon Bolivarı vaxtaşırı, rus demişkən, “neprav” çıxarıb yerdən-yerə vururlarmı?**

Məsələn, deyirlərmi ki, kim olub axı o, ispan qardaşlarımızla aramıza girib, separatçılıq edib. Belə deyirlərsə, yəqin ki, kimsə ortaya çıxıb Bolivarın müstəmləkəçilərə qarşı apardığı azadlıq mübarizəsindən, generalın tarixi xidmətlərindən danışır.

Hərçənd ola bilər, Cənubi Amerikada bu söhbətləri çoxdan edib bitiriblər, indi başları başqa şeyə qarışıb. Əlbəttə, Venesuelada Quaydo ilə Moderonun davasını qoyub ölkənin 2-ci prezidenti olmuş Bolivarın söhbəti eləməzlər.

Heç Kolumbiyada da ölkənin qurucu prezidenti olmuş Simon Bolivarı bu gün çox müzakirə etməzlər, çünki gündəmdə başqa məsələlər var.

Həmin məsələlər Bolivarın eyni zamanda qurucu, 1-ci prezident olduğu Boliviyada da aktualdır. Həmçinin 8-ci prezidenti Simon Bolivar (bəli, general 4 ölkənin prezidenti olub) olan Peruda da gündəm əsasən narkobaron El Çaponun ömürlük həbsidir.

Bu da əbəs yerə deyil, çünki narkokartel rəisinin həbsindən sonra regionun aqrar sektorunda, xüsusilə də koka və çətənə plantasiyalarının becərilməsi sahəsində yaranmış durum çox aktualdır. Perspektiv planlar, zəhmətkeşlərin bundan sonrakı güzəranı, vəziyyətdən çıxış yolları müzakirə olunur, yəqin. Kimin nəyinə lazımdır ki, 200 il əvvəl cənab Bolivar Cənubi Amerika Birləşmiş Ştatları yaratmaq istəyərkən, niyə elə olub, belə olub.

O bizik, hələ də Babəkdən, Şah İsmayıldan əl çəkmirik. Bir tirə hiddətli şəkildə onları söyür, o biri tirə eyni hiddətlə söyənlərə qarşı çıxır və o tarixi şəxsiyyətləri öyür.

Tərs kimi, əldəki informasiyalar da qarışıqdır, oxumuş adamlar demişkən, bu xüsusda xəbər kirliliyi var.

Bəri başdan deyim ki, ərəb istilaçılarına qarşı çıxdığı üçün çox adam Babəkin tərəfindədir. Adi bu gün bir kənddə doğulan üç generalın bir nazirlikdə, üç prokurorun bir mahalda, 4 rəisin qonşu rayonlarda post tutmasına dözmək olmur, o da ola min il qabağın sərkərdələri basa-basa bir yanı Dərbənd, o biri yanı Xivə, hər yanı istila edirmişlər.

Bir də keçmiş padşahların ideallaşdırılması tendensiyası var. İndinin demokrat liderlərinin bir çəpəki baxışını, tikanlı sözünü həsm etmək olmur, dərhal adını diktator və zalım qoyurlar, 500 il əvvəl gündə 50 adam asdıran, hər hərbi yürüşündə 100 min adam doğratdıran qəsbkar müstəbidlərə bu sevgi hardandır?

Məsələn, Çingiz xanı, əmir Teymuru öyə-öyə bitirmirlər. Halbuki onlar da öz dövrlərinin Hitleri olublar, dünyanın o başından gəlib, özlərinin olmayan torpaqlarda milyonlarla dinc insanları qırıblar, yüz minlərlə qadın zorlatdırıblar. Böyük fatehlərmiş! Yox bir, humanizm mücəssəməsidirlər. Hamısı vəhşi olublar - birmənalı.

Tarixə də məhz bu cür qiymət verməк lazımdır - doğru-dürüst, pafossuz, riyasız, olduğu kimi.

Adicə Anadolu türkləri bir seriala o boyda Sultan Süleymanın möhtəşəm xarizmasını heç-puç etmədilərmi? Hələ adamın etdiklərinin çoxunun üstündən keçdilər, göstərmədilər. Onun öz oğullarını necə boğdurmasına, onların körpə övladlarını, hamilə yoldaşlarını necə edam etdirməsinə xüsusi bölüm həsr etmədilər, eləcə şahzadə Mustafaya qarşı etdiyi ədalətsizliyi göstərdilər, Türkiyədə millət ayağa qalxdı, camelərə axışıb Mustafaya ehsan-zad verdilər, ruhuna fatihə oxutdulər. 500 ildən sonra. Serial olmasa, həqiqətdən xəbərləri yoxmuş.

Bəlkə bizim oxumuş adamlar da tez-tez böyük tarixi şəxsiyyətlərimizin adını hallandıraraq bizi maarifləndirmək istəyirlər? Nə biləsən.

Hələlik ortada olan tozanaqdır və haçalanmış fikirlərin toqquşmasından doğan təhqiramiz epitetlərdir. Polemikaya girənlər axırda mütləq bir-birinə “agent” deyir.

Əlbəttə, tarixçilərin mötəbər tarixi məxəzlərə istinad edərək əsl həqiqətləri ortaya çıxarması vacibdir, amma tarixçi olmayanların da elmi diskussiyalara qatılıb söyüşməsi biabırçılıqdır.

Baxın, yazının əvvəlində adını çəkdiyim ölkələrdə cənab general-prezident Simon Xose Antonio de la Santisima Trinidad Bolivar de la Konsepson-Ponte Palasios-i-Blankonun adını hallandıraraq dalaşan, söyüşən yoxdur.

İndi kimsə deyəcək ki, bu uzunluqda adı hallandırmaq asan məsələ deyil. Olsun. Hər halda, rəhmətliklərin fəaliyyətinin tənqid edilməsi də faydalı deyil, dirilərdən danışmaq lazımdır.

# Parlament seçkiləri ilə bağlı yeni ehtimal-Milli Məclisə onlar gəlir...

## İqbal Ağazadə və Elçin Mirzəbəyli Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq sazişdən sonra keçirilə biləcək seçkilər haqda nələr dedilər...

**Cari ildə parlament seçkilərinin keçiriləcəyi barədə aylardır davam edən müzakirələr yay fəsli girər-girməz səngidi. Ortada, sadəcə, bəzi ehtimallar qalır. Ehtimallardan biri ondan ibarətdir ki, Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq sazişdən sonra yeni seçkilər təyin olunacaq. Sazişin isə bu ilin sonlarına qədər bağlanacağı gözlənilir.**

Ehtimallardan biri də odur ki, bu dəfə qanunverici orqanda ciddi dəyişikliklər olacaq. Əsas müxalif fiqurlarından sayılan bəzi şəxslər mandat alacaq..

**Ümid Partiyasının sədri İqbal Ağazadə ehtimallara bu cür şərh verdi:** “Parlament seçkilərini gələn ilin noyabrında gözləyirəm. İndidən nəyinsə olacağını demək çox tezdir. Kimin parlamentə buraxılıb-buraxılmayacağını kimsə deyə bilməz. Biz demokratik seçkilərin keçirilməsini istəyirik. Hamının haqqı tanınmalı, qalib gələnlər parlamentdə təmsil olunmalıdır. Kiminsə hansısa camiədən olmasının bizim üçün fərqi yoxdur. İnsanların verdiyi səslərlə kim qalib gəlirsə, qələbəsi tanınmalıdır. Açığı, seçkilərin başqa tərəfləri məni maraqlandırmır. Kimin buraxılıb-buraxılmayacağı barədə heç düşünmək belə istəmirəm”.

**BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli seçkilərin bu il baş tutmayacağına əmindir:** “Bu il Azərbaycanda parlament seçkilərinin keçiriləcəyi ilə bağlı yayılan məlumatların əsasında hansı amillərin dayandığını söyləmək çox çətindir. Bununla bağlı müxtəlif fərziyyələr irəli sürmək olar. Ola bilsin ki, kimlərsə uzaq hədəflərini yaxınlaşdırmaq, fəaliyyətlərini stimullaşdırmaq istəyib. Amma məlum olduğu kimi, bu məlumatlar öz təsdiqini tapmadı və bunun üçün əsas olmadığı bildirildi. Qeyd edim ki, Azərbaycan Konstitusiyasının 98-ci maddəsinin I hissəsinə uyğun olaraq, Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bank İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Prezident tərəfindən iki dəfə təqdim edildikdən sonra, bu Daxili Nizamnamənin 26-cı maddəsinin birinci hissəsində müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə Konstitusiyasının 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddədə göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə ölkə prezidenti Milli Məclisi buraxır. 5-ci çağırış ərzində Milli Məclisin buraxılmasına əsas verən sadaladığım halların heç biri baş verməyib. Məsələnin vaxtla bağlı tərəfinə gəldikdə isə, bu il dekabrın 27-də bələdiyyələrə seçkilər keçiriləcək. Namizədlərin irəli sürülməsi, qeydə alınması, eləcə də təbliğat-təşviqat prosesinə isə, çox güman ki, oktyabrın 20-dən sonra start veriləcək. Məsələnin digər hüquqi və hazırlıqla bağlı olan tərəflərini nəzərə alsaq, dairə və məntəqə seçki komissiyalarının fəaliyyətinin təmin olunması üçün də kifayət qədər vaxt lazımdır. Yəni 2019-cu ildə Azərbaycanda parlament seçkilərinin keçirilməsi üçün vaxt qalmır. 2020-ci ildə isə onsuz da Milli Məclisə seçkilər keçiriləcək. Avropa İttifaqı ilə sazişin isə parlament seçkiləri ilə hər hansı bir əlaqəsinin olduğunu düşünmürəm. Bunu düşünmək üçün hər hansı tutarlı, inandırıcı arqument də yoxdur. Bütün bunları ümumiləşdirdikdən sonra birmənalı şəkildə deyə bilərik ki, 2019-cu ildə Milli Məclisə seçkilər ona görə keçirilməyəcək ki, seçkinin keçirilmə vaxtı qanunvericiliklə 2020-ci ilə təsadüf edir. Parlament seçkilərinin nəticələrini səsvermə müəyyənləşdirir. Bundan kənarda olan bütün yanaşmaların hüquqi əsası olmadı üçün münasibət bildirməyi vaxt itkisi hesab edirəm. Yəni Milli Məclisdə kimin təmsil olunacağına və olunmayacağına Azərbaycan vətəndaşları qərar verəcəklər. 6-cı çağırışda Milli Məclisdə yeni insanların təmsil olunacağını təxmin etmək üçün siyasətçi olmağa da lüzum yoxdur. Dəyişiklik olacaq, şübhəsiz və olmalıdır da. Çünki ölkədə həyata keçirilən dərinləşdirilmiş islahatların yaratdığı müsbət, dinamik atmosfer belə deməyə əsas verir. Eyni zamanda hesab edirəm ki, bu gün Azərbaycana sonda deyiləcək sözü öndə deyən, pafoslu, gurultulu ifadələrlə kütlənin diqqətini cəlb etməyə çalışan, iddiası beynindəki qatların uzunluğunu bir neçə dəfə üstələyənlərdən daha çox məsuliyyətli, dövlətimizin və xalqımızın təhlükəsizliyini, ölkədə həyata keçirilən islahatların fəlsəfəsini başa düşən siyasətçilər lazımdır”.




❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Poroşenko İstanbula istirahətə gedib, yoxsa ölkəsindən qaçıb?

## Elxan Şahinoğlu: “Ölkəsini tərk edəcəkdisə, niyə parlament seçkisinə bu qədər enerji sərf edirdi?”

**Ukraynanın eks-prezidenti Petro Poroşenko dövlət mühafizəsindən imtina edərək ailəsi ilə birlikdə Türkiyəyə yola düşüb. O, ailəsi ilə İstanbula uçub. Keçmiş prezidentin Türkiyəyə istirahət etmək üçün getdiyi ehtimal olunur.**




Onun qohumlarının bir qismi ötən həftə, Poroşenkonun özü də daxil olmaqla, digərləri isə iyulun 28-də İstanbula uçub. Lakin onun Türkiyəyə sığınacaq üçün getdiyi versiyasını irəli sürənlər də var.

Ukrayna iqtidarındakı müəyyən dairələr güman edir ki, sabiq prezident qayıtmaya bilər. Üstəlik, Vladimir Zelenski prezident seçildikdən sonra Poroşenko istintaqa cəlb edilib. Bəs rəsmi Ankara Poroşenkoya sığınacaq verə bilərmi? Türkiyə-Rusiya münasibətlərinin heç vaxt olmadığı qədər bu gün inkişaf etdiyini nəzərə alsaq, Moskvanın sevmədiyi Poroşenkoya Ankaranın sığınacaq verməsi Kremli qəzəbləndirə bilərmi?

Politoloq Mixail Poqrebinskiy “NewsOne” telekanalına açıqlamasında deyib ki, Poroşenko geri qayıtmayacaq. O, İstanbuldan Dubaya uçub, oradan da birdəfəlik yox ola bilər. Politoloq korrupsiyada ittiham olunan prezidentin ölkədən belə rahatlıqla çıxmasına hiddətini bildirib. Poroşenko İstanbulda barəsində hər hansı cinayət işinin qaldırılmadığını iddia edən bəyanat verib.

**“Poqrebinski ruspərəst siyasətçidir və onun bütün çıxışlarından görmək olur ki, Moskvanın maraqlarından danışır. Ondan başqa fikir gözləməzdim. Əgər Poroşenko ölkəsini tərk edəcəkdisə, parlament seçkisinə bu qədər enerji niyə sərf edirdi? Sadəcə, qəsdən şayiə yayırlar ki, qorxsun”. Bu fikirləri “Yeni Müsavat”a siyasi şərhçi Elxan Şahinoğlu Poroşenkonun Türkiyədən sığınacaq istəməsi ehtimalı haqda danışarkən bildirdi. Politoloq Türkiyəyə və ya Dubaya ehtiyac olmadığını düşünür:** “Türkiyə-Rusiya münasibətləri yaxşıdır. Sadəcə, Poroşenko istirahətə gedib. Ukraynalılar dəniz sahillərində istirahətə gedir. Düzdür, ona cinayət işi açıla bilər. Amma partiyası parlamentdə yer qazanıb. Hətta həbs təhlükəsi olsa belə, məncə, qayıdar. Amma sığınacaq istəyəcəksə, Türkiyə yox, Avropa ölkələrindən biri ola bilər”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019

# Oliqarxlara və deputata bağlı istirahət mərkəzlərinin başı dərddə

## Ekologiya Nazirliyi Xəzəri çirkləndirən obyektləri məhkəməyə verdi; hüquqşünas: “Ortaya iradə qoyulsa, işlərə obyektiv baxıla bilər...”

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Xəzər dənizinin Bakı, Sumqayıt, şimal və cənub sahil zolağında fəaliyyət göstərən ictimai-iaşə obyektlərində tullantı sularının idarə olunması vəziyyəti ilə bağlı növbəti reydlər keçirib. Reydin məqsədi bundan əvvəl verilmiş məcburi göstərişlərin icra vəziyyətini yoxlamaq olub.**




Yoxlama zamanı Xaçmaz rayonu ərazisində fəaliyyət göstərən “Palma”, “Riverin”, “Ober Lyuks”, “El Faro”, “Təhsil”, “Atlant” istirahət mərkəzlərində sutəmizləyici qurğuların quraşdırıldığı, Sumqayıtda fəaliyyət göstərən “Dostluq”, “Caspian Breeze”, “Şərur”, “Amore”, “Nicat”, “Freqat”, “Regnum”, “Röya”, “Turan”, “Təndir”, “Qala” istirahət mərkəzlərinin çirkab sularının mərkəzi kanalizasiya şəbəkəsinə qoşulduğu müəyyən olunub. Xaçmaz rayonundakı “Çıraqqala”, “Jalə”, Sumqayıt şəhərindəki “Duyğu”, “Liman”, “Atlantida”, “Flaqman”, “Narınqala”, “Balıqçı”, “Alma”, “Neptun”, “Antalya”, “Qala”, Bakı şəhərindəki “Mirvari”, “Riyad park”, “Caspian Beach”, “1001 gecə”, “Eldarado”, “Dostluq”, “Aquapark” istirahət mərkəzlərinə bir müddət əvvəl verilmiş “məcburi göstəriş”lərin tələbləri icra edilmədiyi üçün onların fəaliyyətlərinin dayandırılması ilə bağlı məhkəmə qarşısında vəsatət qaldırılıb.

Şıx çimərliyi ərazisində fəaliyyət göstərən “1001 gecə”, “Eldorado”, “Aqua Park” və “Dostluq” istirahət mərkəzlərində formalaşan tullantı sularının təmizlənmədən Xəzər dənizinə axıdıldığı aşkar edilib.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərini pozduqlarına görə istirahət mərkəzlərinə cavabdeh şəxslər Raul Qasımov, Rəşad Hüseynov, Zaur Hüseynli və Azər İsmayılov barəsində protokol tərtib olunub və onların hər biri 4 min manat məbləğində cərimə edilib. Çirkab sutəmizləyici qurğuların quraşdırılması üçün obyekt sahiblərinə icrası məcburi olan göstərişlər verilib. Məcburi göstərişlərin tələbləri icra olunmadığı təqdirdə məhkəməyə müraciət olunacaq.

Reydlər zamanı Nabranda fəaliyyət göstərən “Lotos”, “Ulduz”, Sumqayıtdakı “Katamaran”, “Sahil”, “Diana”, Bakıdakı “Bizim sahil”, “Xəzər”, “Türkan”, “Simurq”, “Voyage”, “Qala” və “Antalya” istirahət mərkəzlərində, Lənkəran-Astara zonasında isə “Dağlar oğlu”, “Həsirli”, “Su pərisi”, “Panorama” ictimai-iaşə obyektlərində də formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdıldığı aşkar edilib və cavabdeh şəxslər barəsində akt tərtib olunub. Formalaşan tullantı sularının təmizlənməsi üçün sözügedən obyektlərin sahiblərinə icrası məcburi olan məcburi göstərişlər verilib.




Hüseynbala Mirələmova

Azərbaycanda istirahət mərkəzlərinin məmur-oliqarxlara məxsus olması kimsəyə sirr deyil. Məsələn, cərimə olunan istirahət mərkəzlərindən “1001 gecə” deputat Hüseynbala Mirələmova məxsusdur. 2012-ci ildə həmin mərkəzdə baş verən qətldən sonra deputatın yaxınları da istintaqa cəlb olunmuşdular. Deputatın oğlu, iş üzrə ifadəsi alınmış Fərid Mirələmov mərkəzin atasına məxsus olduğunu gizlətməmişdi.

**2012-ci ildə Xarici İşlər Nazirliyinin 1-ci (qərb) Ərazi İdarəsinin ikinci katibi vəzifəsində çalışan Rəşad Mirələmovun ifadəsini təqdim edirik.**

**Sitat:** “Mən anadan olduğum vaxtdan ilkin olaraq Lənkəran şəhərində, 1986-cı ildən isə Bakı şəhərində ailəmlə birlikdə yaşayıram. 1997-ci ildə Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsini bitirmişəm. Xarici İşlər Nazirliyində 1999-cu ildən işləməklə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində 3-cü katib, hazırda isə Xarici İşlər Nazirliyinin özündə ikinci katib vəzifəsində işləyirəm. Şıx çimərliyində yerləşən ”Min bir gecə" istirahət mərkəzi atama məxsus olduğundan və yaşadığımız evə yaxın məsafədə yerləşdiyindən yay mövsümündə tez-tez ailə üzvlərim və ya tək həmin istirahət mərkəzinə gəlirəm".

https://musavat.com/news/min-bir-gece-deki-qetl-gecesinin-daha-bir-sirri-acilir_151204.html ttps://musavat.com/news/min-bir-gece-deki-qetl-gecesinin-daha-bir-sirri-acilir_151204.html

Digər mərkəzlərin faktiki sahiblərinin də vəzifəli şəxslər olması haqda məlumatlar dolaşır. Bu baxımdan nazirliyin istirahət mərkəzlərini məhkəmədə udması perspektivi suallar doğurur.

**Bu haqda “Yeni Müsavat”a danışan hüquqşünas Əkrəm Həsənov deyib ki, Azərbaycanda istirahət mərkəzlərinin sıravi vətəndaşlara məxsus olmadığını bilməyən yoxdur:** “Belə yerlərdə sıravı vətəndaş daşı daş üstə qoymaq imkanında deyil. Digər tərəfdən, dəniz sahilində, meşədə geniş ərazini götürüb orada istirahət mərkəzi tikmək böyük məsrəflər tələb edir. Bundan başqa tələblər də var. Ümumiyyətlə, Azərbaycanda ekologiya standartlarını pozanlar çoxdur. Ekologiya Nazirliyi üzərinə düşən vəzifəni yerinə yetirir, məhkəməyə gedir. Sadəcə, belə məsələlərdə ayrı-seçkilik edilməməlidir. Nazirliyin haqlı tələbini yerinə yetirməyiblərsə, məhkəməyə müraciət etmək doğrudur. Sadəcə, məhkəmədə işi udub-udmamaq perspektivi məsələsi obyektiv və qeyri-obyektiv səbəblərə bağlı olacaq. İstirahət zonaları adi vətəndaşların deyil. Bunu ölkədə bilməyən az adam tapılar. Çox imkanlı, əksər hallarda da dövlət orqanlarına yaxın şəxslərə, məmurlara məxsusdur. Belə işlər məhkəmələrdəki korrupsiya mexanizmləri, bir çox hallarda pulla həll edilmir. Zəng edib tapşırırlar və hakim də tabe olur, tələb olunan qərar verilir”.

**Hüquqşünas deyir ki, ortaya yüksək səviyyədə iradə qoyulsa, işlərə obyektiv baxıla bilər və ekologiyanı pozanlar cəzaya çatdırılarlar:** “İşlərə obyektiv baxılmasa, pul, zəng məsələsi olsa, nazirliyin iddiaları heç nəyi dəyişməyəcək, Xəzər də çirklənməkdə davam edəcək, meşələr də zibilxanaya döndəriləcək”.

❑ E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”

# Əhəd Abıyev vətəndaşlarla səyyar görüş keçirib

**İyulun 31-də Daşkəsən rayon Əmirvar kənd H.Qasımov adına tam orta məktəbdə keçirilən qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, aparatın məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və sakinlər iştirak ediblər. Bu barədə Daşkəsən İcra Hakimiyyətindən Musavat.com-a bildirilib.**



Əhəd Abıyev çıxışında deyib ki, dövlət səviyyəsində qəbul edilən proqramların, xüsusən “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə əlaqədar görülən işlər nəticəsində Daşkəsən rayonunda, eləcə də Əmirvar kəndində abadlıq və quruculuq işləri sürətlənib. O deyib ki, 80 şagird yerlik Əmirvar-Əhmədli kənd ümumi orta məktəbi müasir formada yenidən tikilib, 360 şagird yerlik Əmirvar kənd H.Qasımov adına tam orta məktəbi isə əsaslı təmir edilib, 24,5 km uzunluğunda olan Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işlərində son tamamlama aparılır. “Layihənin icrası nəticəsində ərazidə 2 yeni avtomobil körpüsü inşa edilib və zəruri nöqtələrdə 40 ədəd yeni suötürücü dəmir-beton boruları tikilib. Yeni yolun çəkilməsi ilə yolboyu 9 yaşayış məntəqəsində yaşayan 3 mindən çox vətəndaşın həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir göstərən kənd təsərrüfatının ayrı-ayrı sektorları inkişaf edəcək. Bununla yanaşı, ərazidə turizmin inkişafına geniş imkanlar yaratmışdır” - deyə, icra başçısı bildirib.





**Əhəd Abıyev son aylarda ölkə prezidenti İlham Əliyevin sosial sahədə apardığı islahatlardan da danışıb. O deyib:** “İlin əvvəlindən həyata keçirilən islahatların davamı olaraq prezident cənab İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. Bu sərəncamlarla ölkədə minimum əmək haqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olunub. Ölkə başçısının imzaladığı fərman və sərəncamlar sosial sifariş olaraq birbaşa əhalinin problemlərinin həllinə, rifahının yüksəlməsinə, güzəranının yaxşılaşmasına və layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət edir”.

Daha sonra Əhəd Abıyev kənd sakinlərini dinləyib.

Sakinlər rayonda, o cümlədən Əmirvar kəndində gedən abadlıq, quruculuq, əsaslı yenidənqurma işlərinə, xüsusilə yeni yolun əsaslı təmirinə görə ölkə prezidentə minnətdarlıqlarını bildiriblər.

❑ Xəbər xidməti



# Xalq maketi

Zamin HACI
zaminhaci@gmail.com

"Qabağa verib, dalda pusarlar səni,
Dilinə görə bir gün asarlar səni,
Yürüşə salıb üç il basarlar səni,
Məhkəmələr milli maketnən gedir,
Bəşər gələn əsrə raketnən gedir,
Bizimkilər motoskletnən gedir".

*(Baba Pünhan)*

**Uşaq olanda, yadıma gəlir, həyətimizdə bir neçə gilas ağacı var idi, meyvə yetişən vaxtı isə o ağaclar sığırçınların kütləvi hücumuna məruz qalırdı. Sözgəlişi, böyüyəndə bildim, sən demə, bizim folklorda "Gilas bağın olsa, bilərsən sığırçın necə quşdur" kimi ata sözü varmış. Çox dəqiq sözdür, canlı şahidiyəm. Gilaslardan ən çox məhsul verəni evdən haradasa 40 metr aralıda idi, hər dəfə gedib quşları qovmağa həvəs olmurdu, məcburən biz "texnoloji" üsuldan yararlanırdıq: bir neçə boş konserv qutusu ipə keçirilmişdi, həmin ipi isə evə qədər uzatmışdıq. Beləcə, eyvanda oturub qutuları danqıldatmaqla sığırçınların gilası yeməsinə mane olurduq. Məhz həmin sığırçınların ahı üzündən bu il bizdə gilasın kilosu 9 manata qalxmışdı. Ancaq bu başqa temadır. Bəs sözümü nəyə gətirirəm?**

Təzəlikcə yol polisi hərəkət qaydalarını pozan sürücülərə qarşı polis maşını maketlərindən yararlanacağını açıqlayanda yadıma o uşaqlıq üsulumuz düşdü. Bundan başqa, hansısa payaya köhnə paltarı keçirib bostan uyuğu düzəltmək kimi beynəlxalq metod da vardır. Ümumiyyətlə, maketlərdən savaş üsulu kimi yararlanmaq dünya təcrübəsində geniş yayılıbdır. Birinci dünya savaşı zamanı almanlar, ingilislər taxtadan, rezindən, qamışdan tank maketləri düzəldib qarşı səngərdəki düşməni aldadır, qorxudurdular. 1990-cı ildə ABŞ ordusu İraqı vuranda Səddamın səhraya bəzi tank maketləri düzdüyü ortaya çıxmışdı. Ya da tərsinə, NATO maketlər qurmuşdu - dəqiq yadımda qalmayıb. Əslində lap qədimə getsək Troya savaşında istifadə edilən o yalançı at heykəli haradasa maketlə mübarizənin bir forması sayıla bilər.

Uzun sözün qısası, yol polisinin sürücüləri maketlə qorxutması bəyənilən, təcrübədən keçmiş üsuldur. Əlbəttə, yaxşı olardı sürücülər, ümumiyyətlə Azərbaycanda yaşayan hər bir kəs maketlərdən yox, qanunlardan, qaydalardan çəkinsinlər. Ancaq hələlik bu mümkün deyildirsə, heç olmazsa maketdən qorxsunlar. Hətta yaxşı olardı bu maketləşmə dövlətin başqa infrastruktur sahələrində də tətbiqini tapsın, nəsə Dövlət Maket Nazirliyi (DMN) yaradılsın.

Misal üçün, məhkəmələrdə həqiqi qılınc maketləri asılsın. Yoxsa Femidanın şəklindəki qılıncla hakimlərimizi ədalətli qərar qayırmağa məcbur eləmək çətindir. Prokurorun gözünün qabağına saman doldurulmuş canavar dərisi, vəkilin qabağına da üstünə "Pul" yazılmış kisə qoymaq məsləhətdir. Jurnalistlər çaşmasın deyə hər bir redaksiyanın girişində qandal, tikanlı məftil, barmaqlıq, canım sənə desin, yerə dağılmış yoğurt və sairə məhsullardan yararlanmaq olar.

Elə deputatların bəzilərinin yerinə seçki vaxtı maket qoymaq daha səmərəli olardı, ən azından maket səydəş açıqlamalar verib camaatın beynini xarab eləməzdi. Doğrudur, məşhur manıslarımızdan biri demişkən, şəkillərdən baxışın, yastığımda göz yaşın səni əvəz eləmir, ancaq müəyyən qədər stimul verməsi şübhəsizdir.

İndi yadıma düşdü, bir neçə il qabaq Bakıda gül bayramları keçiriləndə şəhərin şefi Hacıbala müəllim bu maketləşmə üsulunu Qarabağ probleminin həllində uğurlu şəkildə tətbiq etmişdi. Meydanda Şuşanın, Laçının, Ağdamın və sairə işğa edilmiş şəhərlərimizin maketləri qurulmuşdu, camaat da gedib qabağında şəkil çəkdirirdi. Həmin şəkilə baxanda heç cür anlaya bilməzdin ki, bu şəkil doğrudan-doğruya, məsələn, Şuşanın darvazası qabağında çəkilibdir, ya Bakının Basin küçəsində (yeri gəlmişkən, küçənin gül kimi, müasir dövrümüzdəki basabasa uyğun adı var idi, heyf, dəyişiblər).

Bu islahatın lap axırında Azərbaycan xalqının yerinə nəsə bir xalq maketi qoymaq yaxşı olardı. Xərci az çıxardı. İndi gör nə qədər pensiya alan var...

**Sentyabrın 1-dən Türkiyə vətəndaşları üçün viza rejimi ləğv olunacaq. Bu, sözsüz ki, iki qardaş ölkə əlaqələrini daha yüksək səviyyəyə qaldıracaq. 80 milyonluq Türkiyə ilə 10 milyonluq Azərbaycan arasında humanitar-mədəni əlaqələr də daxil, bütün sferalar, o cümlədən hərbi sahə üzrə əlaqələri dərinləşdirəcək. Bütövlükdə iki qardaşın və təbii müttəfiqin birliyini bir az da "ət-dırnaq" kimi edəcək.**

# Türkiyənin yeni Naxçıvan planı - İrəvan təlaşda

## Ankara muxtar bölgənin müdafiəsini gücləndirir; Qarsdan Naxçıvana dəmir yolu çəkiləcək; bu yolla "kiçik torpağ"a hərbi yüklər də daşına bilər - həm də Bakıdan, BTQ vasitəsilə; işğalçı Ermənistan isə blokadadan və taxıl böhranından çıxış yolu axtarır...




Nə xoş ki, Türkiyə tərəfdən də analoji addımlar atılması davam edir. Xüsusən də Ermənistanın nəqliyyat blokadasından əziyyət çəkən anklav Naxçıvana qardaş ölkənin artan diqqəti qeyd olunmaya bilməz. Söhbət təkcə "kiçik torpaq"da vaxtaşırı keçirilən birgə hərbi təlimlərdən, yaxud burada ən azı, bir Türkiyə hərbi bazasının qurulmasının vaxtı çatmasından getmir.

Bunlar öz yerində. Ankara Naxçıvanla bağlı Qars müqaviləsindən irəli gələn hərbi-təhlükəsizlik xarakterli bütün öhdəliklərinə sadiqdir. Söhbət həm də bölgənin iqtisadi cəhətcə güclənməsi yönündə atılan addımlardan gedir. Təsadüfi deyil ki, son vaxtlar qardaş ölkədən Naxçıvana iqtisadi-ticari ilişkiləri genişləndirməyə yönəlik səfərlər xeyli artıb. Bu da hamısı deyil.

*****

**"Artıq Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi hazırlanma ərəfəsindədir". Bunu APA-nın yerli bürosuna Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan deyib. Nazir bildirib ki, bu, Türkiyənin Azərbaycanla nəqliyyat əlaqələrini daha da genişləndirməsindən xəbər verir.** "Türkiyənin Azərbaycanla birgə həyata keçirdiyi layihələr təkcə iqtisadi deyil, həm də böyük siyasi məna daşıyır. Birlikdə həyata keçirdiyimiz layihələr regionun təhlükəsizliyini və sabitliyini gücləndirir", - deyə o qeyd edib.

**Nazirin sözlərinə görə, son zamanlar Türkiyənin Azərbaycanla iqtisadi əməkdaşlıq əlaqələri daha sıx xarakter alıb:** "Bu, hər iki ölkənin gücünü artırmaqla yanaşı, regionda nəqliyyat infrastrukturunun inkişafına zəmin yaradır".

Haqqında söz gedən dəmir yolu layihəsi həqiqətən həm də böyük siyasi anlam daşıyır. Çünki Qarabağ ixtilafına görə Naxçıvan yarım-blokada vəziyyətindədir. Ən əsası, ermənilər Naxçıvana da göz dikib və bunu heç gizlətmirlər də. Belə bir dəmir yolunun açılması isə hərbi təcavüz halında Naxçıvana Türkiyədən hərbi xarakterli yüklərin daşınmasını daha da asanlaşdıra bilər. Nəzərə alsaq ki, artıq Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu da fəaliyyətdədir, o zaman yeni inşa olunacaq Qars-İğdır-Naxçıvan dəmir yolu vasitəsilə Bakı özü də Naxçıvanın müdafiəsi üçün hərbi yüklər göndərə bilər. Bu xüsusda layihəni Türkiyənin Naxçıvanla bağlı yeni planının tərkib hissəsi də saymaq olar...

*****

Əlbəttə, Qarabağ problemi, işğal məsələsi olmasaydı, indi Ermənistandan keçən (Mehri-Qafan) dəmir yolu (Bakı-Naxçıvan yolu) da işlək vəziyyətdə idi və həm Naxçıvan, həm də Ermənistan əhalisi ondan müştərək istifadə edirdi. Xüsusən də işğalçı ölkə bu xətdən böyük fayda götürə bilərdi. Çünki o, Orta Asiyadan, Çindən Ermənistana ən qısa yoldur.

Yeri gəlmişkən, hazırda işğalçı ölkədə böyük narahatlıq var ki, Gürcüstan oktyabrın 1-dən Ermənistana avtomobil yolu ilə yük daşımalarını, o cümlədən Rusiya və Qazaxıstandan taxıl məhsullarının daşınmasını məhdudlaşdıra bilər. Bununla bağlı Gürcüstan hökuməti artıq xəbərdarlıq edib. Rəsmi Tiflis bunu onunla izah edir ki, avtomobil yolu ilə taxılın Ermənistana daşınması ətraf mühitə və yol infrastrukturuna ziyan vurur. Çünki daşıma üçün istifadə edilən TIR parkı köhnəlib, habelə maşınlara normadan artıq yük vurulduğu üçün yollar sıradan çıxır.

Lakin taxıl məhsulları Azərbaycan ərazisindən də daşına bilərdi. Qazaxıstandan Ermənistana ən qısa və sərfəli yol məhz Azərbaycan vasitəsilədir. O halda un məhsullarının qiyməti də aşağı olardı.

**Problem haqda danışan Ermənistandakı "Manana Qreyn" iri un istehsalı şirkətinin direktoru Qurgen Nikoqosyan ümid etdiyini bildirib ki, rəsmi bəyanat verilməsə də Tiflisin qadağanı tətbiq etməyəcəyi haqda məlumat var:** "Bu da Ermənistanın un istehsalçılarına sərf edir. Çünki istənilən məhdudiyyət ziyana gətirib çıxaracaq" (Virtulaz.org).

Nikoqosyan hesab edir ki, əgər Gürcüstan qadağanı tətbiq etsə Ermənistan üçün ən qısa və ucuz marşrut-Yuxarı Lars marşrutu bağlanacaq. Belə olan halda isə taxılı Rusiyanın Novorossiysk limamından Gürcüstanın Poti limanına, oradan isə dəmir yolu ilə İrəvana daşımalı olardılar. Təbii ki, o halda taxılın maya dəyəri də qalxacaq.

Lakin Rusiya taxılını dəmir yolu ilə Ermənistana daşımaq mümkündürsə, Qazaxıstan taxılı üçün bu variant keçərli olmayacaq. Belə ki, məlumatlara görə, Tiflis bu türkdilli ölkədən taxıl daşınmasının həcmini artırmaq istəyir. "Əgər Gürcüstan Qazaxıstandan taxıl nəql edəcəksə, o zaman Azərbaycanın dəmir yollarından istifadə edəcək. Bizim isə Bakı ilə diplomatik münasibətlərimiz yoxdur, ona görə də həmin yol Ermənistan üçün bağlıdır" - Nikoqosyan deyib.

Yada salaq ki, Tiflislə Bakı arasında razılaşmaya əsasən, gürcü tərəfi Azərbaycan ərazisindən nəql edilən yükləri Ermənistana ötürə və ya sata bilməz. Qazaxıstan taxılının Rusiya üzərindən Ermənistana nəqli isə Nikoqosyana görə, sərfəli deyil, çünki bu marşrut baha başa gəlir.

*****

Göründüyü kimi, Ermənistan özünün işğalçı siyasətinin girovu olaraq qalmaqda və buna görə ağır bədəl ödəməkdə davam edir. Halbuki İrəvan təkcə Naxçıvan marşrutu, Türkiyə hesabına xeyli dərəcədə ucuz tranzit problemini həll edə, əhalisi aclıq təhdidi altında yaşamazdı. Ancaq bu, bizim problem deyil. Ermənilərindir və ondan çıxış yolu bəlli.

Əlavə edək ki, rəsmi İrəvan uzun illərdir Rusiyadan Gürcüstan ərazisi vasitəsilə özünə yeni dəhliz (Abxaziya dəmir yolu) açmaq üçün dəridən-qabıqdan çıxır. Hələ ki bu cəhdlər fiasko olur. Çünki Gürcüstan üçün Azərbaycan və Türkiyə Ermənistan qədər dəyərdə deyil, ola bilməz...

❑ **"Yenì Müsavat"ın analìtìk xìdmətì**

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019

# Azərbaycan Gürcüstandakı NATO təlimlərinə qatılmadı - səbəb

Keşikçidağ ətrafında gəlişmələr, yoxsa Rusiya amili Bakını imtina qərarı verməyə vadar etdi; **ekspert:** "Mümkündür ki, Tiflisin Keşikçidağ məsələsində Azərbaycana qarşı dostluğa zidd siyasəti, həmçinin Moskvanın regionda apardığı siyasət Azərbaycanın milli mənafelərinə uyğun tədbirlər almasına gətirib"; **Müdafiə Nazirliyindən qısa açıqlama:** "İştirak etmirik"

**Gürcüstanda NATO-nun "Agile Spirit - 2019" təlimləri başlayıb. Sənaki şəhərində piyada qoşunları briqadasının yerləşdiyi ərazidə keçirilən təlimlərdə 14 ölkədən 3 mindən çox hərbçi iştirak edir. Avqustun 9-da başa çatacaq təlimlərdə ABŞ, Belçika, Böyük Britaniya, Bolqarıstan, Yunanıstan, Latviya, Litva, Monteneqro, Norveç, Polşa, Rumıniya, Türkiyə və Ukrayna hərbçiləri iştirak edirlər.**

NATO-nun "Agile Spirit - 2019" təlimləri 2011-ci ildən bəri keçirilir. Maraqlıdır ki, budəfəki təlimlərdə Azərbaycan iştirak etmir. Qeyd edək ki, cari il ərzində Azərbaycan Gürcüstanda keçirilən iki hərbi təlimdə iştirak edib. Birinci təlim mart ayında keçirilib. "NATO-Gürcüstan 2019" adı altında hərbi təlimlər NATO-ya üzv və Alyansın tərəfdaşı olan ümumilikdə 24 müttəfiq ölkədən 350-dən çox, eləcə də dörd NATO tərəfdaş ölkəsi - Azərbaycan, Finlandiya, Gürcüstan və İsveç hərbçiləri qatılıb. İyulun ortalarında isə növbəti təlim baş tutdu. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində yay dağ hazırlığı təliminin birinci mərhələsində Gürcüstan, Azərbaycan, Ukrayna, Çexiya, Polşa, Latviya və İsveç hərbçiləri iştirak etdilər.

Eyni zamanda bu il Azərbaycan, Gürcüstan və Türkiyə birgə hərbi təlim keçirib.

Bu mənada Azərbaycanın sayca üçüncü NATO təliminə qatılmaması suallar doğurub. Son zamanlar Keşikçidağ ətrafında yaranmış vəziyyətlə əlaqədar müəyyən gərginliklər müşahidə olunur. İddialar var ki, üçüncü qüvvə münasibətləri gərginləşdirməyə çalışır. Bu arada Gürcüstan Xarici İşlər Nazirliyi Keşikçidağ (David Qaredji) monastır kompleksi ətrafındakı situasiya ilə bağlı yeni bəyanatla çıxış edib. Virtualaz.org xəbər verir ki, nazirlik monastır kompleksi ilə bağlı məsələnin və Gürcüstan-Azərbaycan sərhədinin delimitasiyasının gündəmdə qaldığını bildirir. İyulun 30-da keçirilmiş mətbuat konfransında xarici işlər nazirinin müavini Laşa Darsaliya bildirib ki, iyulun 14-də yerli sakinlərlə Azərbaycan sərhədçiləri arasında Keşikçidağ ətrafında baş vermiş insident "hər iki ölkənin sərhəd xidmətinin təxirəsalınmaz və birgə fəaliyyəti" nəticəsində tezliklə aradan qaldırılıb. "Həmin insidentdən sonra Azərbaycan tərəfi həmin sahədə sərhədçilərin sayını artırıb və onların nəzarətindəki əraziyə maddi-texniki dəstək göstərmək üçün müvəqqəti infrastruktur qurub. Gürcü sərhədçilərinin də sayı həmin istiqamətdə artırılıb", - **Darsaliya bildirib. Nazir müavini əlavə edib ki, turistlərin, yerli sakinlərin və zəvvarların monastır kompleksinə hərəkəti təhlükəsizlik baxımından və yeni insidentlərin baş verməməsi üçün müvəqqəti dayandırılıb. Laşa Darsaliyanın bildirdiyinə görə, insidentə qədər kompleksə gediş-gəlişə məhdudiyyətlərlə də olsa yol verilirdi. Lakin iyulun 14-dən sonra vəziyyət mürəkkəbləşib.** "Həmin istiqamətdə sərhəd xidmətləri tərəfindən insidenti yoluna qoymaq və vəziyyəti normal məcraya qaytarmaq üçün fəal danışıqlar aparılır", - o qeyd edib. Darsaliya bildirib ki, sərhədlərin delimitasiyası məsələsində iki ölkə hökumətləri fəal əməkdaşlıq edir, bütün aidiyyəti strukturlar iki ölkənin birgə komissiyasının işində iştirak edir. Nazir müavini deyib ki, delimitasiya və demarkasiya üzrə birgə komissiyanın Bakıda may ayında keçirilmiş iclasında ekspertlərin sərhədin həmin istiqamətində işləməsi qərarlaşdırılıb. Ekspertlərin bu məqsədlə ilk görüşü avqustun 19-23-nə təyin edilib.

"Güc birlikdədir" adlı antiişğal hərəkatının qurucularından David Katsarava isə bildirib ki, iyulun 14-də baş vermiş insidentdən sonra monastır kompleksinə gedən yollar bağlanıb, Azərbaycan tərəfinin bəyanatlarının məzmunu sərtləşib. "Azərbaycanlılar təcili rejimdə ikinci baza açıblar və sərhədçilərin sayını ən azı 3 dəfə artırıblar, bizim sərhədçilərin sayı isə əslində artmayıb", - o deyib.

**Gürcüstandakı NATO təlimləri şimal qonşumuzda da qıcıq yaradır. Bundan əvvəl Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin Gürcüstanda NATO ölkələrinin iştirakı ilə keçirilən təlimlərə etirazını bildirmişdi. Demişdi ki, təlimlər regionda gərginlik yaradacaq:** "Bizi Gürcüstanın NATO gündəliyi və bu alyansa sürətlənmiş şəkildə üzv olmaq planları narahat edir. Bu həm bizim münasibətlərimizdə, həmçinin Cənubi Qafqaz regionunda nevroz vəziyyət yaradır. Biz dərhal bu barədə dedik. NATO-nun genişmiqyaslı təlimləri, o cümlədən Azərbaycanı və Ermənistanı da bu təlimlərə cəlb etmək istəyi optimizm yaratmır".

Düzdür, Gürcüstanda ölkənin Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO) qoşulmasını dəstəkləyənlərin sayı azalıb. Beynəlxalq Respublika İnstitutunun (İRİ) keçirdiyi sorğunun yekununda bildirilir ki, sorğu iştirakçılarının cəmi 49 faizi Gürcüstanın NATO üzvlüyünü dəstəkləyib ki, bu da 2009-cu ildən etibarən ən aşağı göstəricidir. Amma istənilən halda, Rusiyanın bölgədə "at oynatmaq" istəyən NATO-nu qəbul etməsi real görünmür.

**Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a dedi ki, NATO-nun Gürcüstanda hər il keçirdiyi hərbi təlimlər əsasən Cənubi Qafqazda rolunu artırmaq, Rusiyanı cənub sərhədlərində zəifləmtəkdir:** "Məhz Alyansın bu aspektdə təlimləri Moskva tərəfindən ciddi etirazlarla qarşılanır və regionda iki tərəf arasında maraqlar toqquşmasına gətirir. Təbii ki, NATO-nun regiona gəlişi regionda ümumi təhlükəsizliyə və işğala qarşı bir sistem formalaşdırır. Hesab edirəm ki, Şimali Atlantika Alyansının Gürcüstanda keçirdiyi "Çevik ruh-2019" təlimləri analoji təlimlərin davamıdır. Bu təlimlər ABŞ-ın rəhbərliyi ilə keçirilir və Gürcüstanda Moskvanın hazırda artan təzyiqlərini azaltmaq və regionda mövcud statusunu inkişaf etdirməyə hesablayıb". **Azərbaycanın iştirak etməməsinə gəldikdə, ekspertimiz bildirdi ki, Azərbaycan hər il bu kimi təlimlərə qatılırdı və özünü Alyansla əməkdaşlıq formatında görürdü:** "Hazırda keçirilən bu təlimlərə Azərbaycanın qatılmaması təbii ki, regionda baş verən proseslərlə bağlı ola bilər. Mümkündür ki, Tiflisin Keşikçidağ məsələsində Azərbaycana qarşı dostluğa zidd siyasəti, həmçinin Moskvanın regionda apardığı siyasət Azərbaycan milli mənafelərinə uyğun tədbirlər almasına gətirib". **M.Əsədullazadə dedi ki, Azərbaycan regionda balanslaşdırılmış siyasət həyata keçirir:** "Əgər bu tədbirdə iştirak nəzərdə tutulmayıbsa, görünür, Moskvadan hər hansı bir hərəkətlilik olub. Çünki Rusiya Yaxın Şərqdə, Şərqi Avropada ABŞ-la ciddi siyasi-hərbi toqquşmadadır. Bu maraq toqquşması Cənubi Qafqazda keçir. Azərbaycan belə bir geosiyasi maraqlar toqquşması fonunda keçirilən bu təlimlərə qatılmamaqla strateji seçim edib. Ona görə də bu kimi təlimlər baxaq görək hazırkı vəziyyətdə bizə nə verə bilər? Görürük ki, yalnız bunun mənfi tendensiyaları ola bilər. Ona görə də müəyyən qədər məsafəli davranış nümayiş etdirilir. NATO da Azərbaycanın seçiminə hörmətlə yanaşır. Hesab edirəm ki, Gürcüstan tezliklə NATO üzvü edilmirsə, Alyans daha da hazırda münaqişələrlə bağlı məsafəli davranırsa, rəsmi Bakı da eyni siyasət aparmalıdır. Yenə də qeyd edim ki, Azərbaycan Avrointeqrasiya siyasətini aparmalıdır, regionun təhlükəsizliyi və ölkəmizin ərazi bütövlüyünün təminini NATO-nun regionda artan rolundan keçir. Baxır NATO hansı məqsədlə regionda öz mövqeyini nümayiş etdirəcək".

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı isə sualımıza cavab olaraq "Biz həmin təlimdə iştirak etmirik" deməklə kifayətləndi.

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**





## ABŞ Qarabağın işğal zonasına maliyyələşdirməni dayandırır

**Amerika Erməni Milli Komitəsi ABŞ hökumətinin Qarabağ separatçılarına verdiyi maddi yardımın dayandırılması ilə bağlı iki aylıq planları barədə məlumat yayıb.**

Virtualaz.org bildirir ki, erməni KİV-ləri ABŞ hökumətinin ərazilərin minalardan təmizlənməsi üçün ayrılmış yardımı azaltmağı planlaşdırdığını söyləyən Amerika Erməni Araşdırmaları Mərkəzinin direktoru Suren Sarkisyanın sözlərini sitat gətirirlər.

"Bu, USAID tərəfindən maliyyələşdirilən bir proqramdır, onun dayandırılması ciddi bir mesajdır və böyük siyasi nəticələrə gətirib çıxaracaq. Bu, siyasi və hüquqi presedent olacaq, hansı ki, nəticələrini hamımız bilirik", - deyə S.Sarkisyan vurğulayıb.

Xatırladaq ki, ABŞ Ermənistandan sonra yeganə ölkədir ki, Qarabağın müstəqilliyini tanımadan, ona birbaşa maliyyə yardımı göstərir.

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019



# Gəlin özümüzü ölülüyə vuraq...

**Hüseynbala SƏLİMOV**

**Bizdən savayı kimsənin oxumadığı sevimli şair və yazıçılarımıza "ilişmək" kimi alınmasın, mən heç vaxt Xəzərə baxıb xəyala-filana dala bilmirəm, çünki böyük hesabla baxılası bir şey yoxdur, əslində nə bir "uzaq yaşıl ada" var, nə də başqa şey.**

Qarşı tərəfdə Türkmənistan və Qazaxıstandır, boyunun bir az yana çevirəndəsə İran və Rusiya. Bunların birində, Rusiyada altı il yaşamışam, digərlərində isə olduğuma görə yox, olmadığıma görə sevinirəm və açığını desəm, Xəzər şəxsən məndə həmişə "pul kisəsi" təəssüratı yaradıbdır.

Xəzərin özünün və ətraflarının faciəsi də bəlkə onda başlayıbdı ki, burada neft və qaz tapılıbdır və bu neft - qaz dənizin özünün də, bütün ətraflarının da mahiyyətini büsbütün dəyişibdir - haqsızı haqlı, haqlını haqsız edibdir, dənizin özündə də canlı nə vardısa, onu demək olar ki, məhv edibdir.

Xüsusən də Xəzərin sahilində bir ölkə var, o, məndə qum səhralarından və bir də qoyun - dəvə otaran türkmən qardaşlardan savayı heç bir emosiya-filan oyatmır - bu ölkə Türkmənistandır. O, yalnız bir aspektdə gəlir mənim fikirlərimə - trans-Xəzər marşrutu konteksində.

Məsələn, hələ bu ilin may ayında indi də qloballaşmadan proteksionist siyasətə keçid alan və dünyanın hər yerində öz milli maraqlarını prioritet elan edən ABŞ-da növbəti trans-Xəzər forumu olmalı idi və bu xüsusdakı təhlillərdə yazılırdı ki, hazırda Vaşinqton Mərkəzi Asiyanın cəmi Xəzəryanı diktatorlarını yamanca sıxır, hətta onları xarici bankdakı böyük pulları ilə şantaj edir.

Nə gizlədim, hətta Qazaxıstanın lideri - Elbaşı Nursultan Nazarbayev vəzifəsini bir başqasına verəndə şəxsən mən bəndəniz belə düşündüm ki, hərif deyəsən, aradan çıxmaq istəyir...

Amma bu son günlərdə, durmadan çiçəklənən, ən əsas-ali hədəfi də qumluq səhralarda pinqvin yetişdirmək olan və neytral Türkmənistan başqa qəlibdə gündəmə gəldi; əvvəlcə dedilər ki, prezident Qurbanqulu Berdimühəmmədov dünyasını dəyişibdir, yəni sələfi Saparmurad Niyazovun - birinci Türkmənbaşının yanına yollanıbdı! Qardaş, bir neçə gün hamı çaş-baş qaldı: bu Berdimühəmmədov ölübdür, yoxsa sağdır?..

Beləcə, əsl "Qurbanqulu tapmacası" yarandı və hamı bu tapmacanı açmağa girişdi. Doğrusu, bəndənizin bu prosesin sonunu gözləməyə nə həvəsi qaldı, nə də ki, marağı.

Üstəlik, hətta prezident Q.Berdimühəmmədov ölübsə belə, bu, türkmən eli üçün elə də faciə deyil - Türkmənistan torpağı bu xüsusda çox, olduqca bərəkətli diyardır, bir Berdimühəmmədovun əvəzinə lap onunu yetişdirər, buralar tamam başqa sarıdan kasaddır: bu qumsal torpaqlarda heç vaxt T.Cefferson və ya V.Havel kimi siyasətçilər yetişmir, təkrarən deyirik ki, Türkmənbaşı sarıdan buralarda tamam bolluqdur...

Amma ən maraqlısı başqa şeydir. Berdimühəmmədovun ölüm xəbərinin yayılması ilə paralel başqa xəbərlər yayıldı: belə xəbərləri yayanlara qarşı böyük kampaniya başlanıldı, hətta onları cəzalandırmağa başladılar və mən bu məqamda barmağımı dişlədim: bax, dövlətçiliyin və millətin düşmənlərini tapmağın ən yaxşı yolu budur - özünü ölülüyə vur və bax, bir gör, kim sevindi?..

Digər bir tərəfdən Q.Berdimühəmmədovun yerində siz özünüz olsaydınız başqa cür hərəkət edərdinizmi? Türkmənistan prezidenti öz düşmənlərini, daha doğrusu, radikal müxalifətini başqa cür necə müəyyən edə bilərdi? Axı ələbələdə heç kim Berdimühəmmədovu sevmədiyini, hətta onun ləl-cəvahiratla işlənmiş kürsüsünə göz dikdiyini boynuna almır!

Ümumilikdə isə bu, dostu-düşməni müəyyən etmək üçün ən yaxşı yoldur. Özü də təkcə prezidentlər üçün yox, hamı üçün - şirkət başçıları, nazirlər, müdirlər, ümumiyyətlə, hər kişi üçün yararlı üsuldur. Odur ki, mən də özümü ölülüyə vurmağı qərara aldım.

Əlbəttə ki, mən nə prezidentəm, nə də müdir, bap-balaca adamam, amma hər halda, özümə görə bir adamam, mənim də dostum-düşmənim, məsələn, yazılarımı sevməyənlər, "Bunun yazılarını niyə verirsiniz?" deyən, qonararımı kəsmək istəyənlər var və mənə bu adamları tanımaq heç də pis olmaz.

Odur ki, bir daha deyirəm: birmənalı, qəti bir qərara gəlmişəm ki, ilk fürsət düşən kimi hörmətli Qurbanqulu əkənin üsulunu bir sınayım, öz dostumu -düşmənimi tanıyım. Bunu sizə də məsləhət görürəm: gəlin hamılıqla özümüzü ölülüyə vuraq. Kim ayıq - sayıq qalsa, bilin ki, bizim hər birimizin yerinə göz dikənlər onlardır...

---

**Xəbər verdiyimiz kimi, Rusiya müxalifət lideri Aleksey Navalnı vəkili və həkiminin onun həbsxanada zəhərləndiyinə dair şübhələrini bölüşdüyünü deyib. 30 gün müddətinə həbs cəzası ilə bağlı apelyasiya müraciətinə cavab gözləyən Navalnı üzünün şişməsi və səpkilərlə əlaqədar olaraq xəstəxanada qaldıqdan sonra yenidən həbsxanaya gətirilən zaman xəstəliyi haqda açıqlamalar verib. "Yəni onlar bu qədər ağılsızdırlar ki, bütün şübhələrin yalnız onlara işarə etdiyi yerdə səni zəhərləsinlər?" deyə, Navalnı sual edib. Özünün veb səhifəsində yerləşdirdiyi yazıda Rusiya müxalifət lideri "nə yeməyə, nə toza, nə də başqa bir şeyə heç vaxt allergiyası olmadığını" bildirib.**




# Onları belə zəhərləyiblər - siyasət adamlarının zəhərə dönən həyatı

## Yuşşenkodan Navalnıya qədər...

Navalnının həkimi Anastasiya Vasilyeva onun xəstəxanadan yenidən həbsxanaya qaytarıldığı zaman Navalnının kimyəvi maddə ilə zəhərləndiyi ehtimalının olduğunu deyib.

O, facebook səhifəsində yazıb ki, "Navalnının "hansısa" "üçüncü şəxs" vasitəsilə naməlum kimyəvi maddə ilə dərisi və selikli qişasının toksik zədələndiyini istisna edə bilmərik".

Nalvanının vəkili Olqa Mixaylova onun inzibati həbsinə sağlıq durumu ilə əlaqədar xitam verilməsini istəyib. "O, həqiqətən də naməlum kimyəvi maddə ilə zəhərlənib" - deyə, müxbirlərə bildirib.

"Lakin bu kimyəvi maddənin nə olduğu hələ müəyyən edilməyib" - deyə, əlavə edib.

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alaraq, bu günə qədər zəhərlənən siyasətçilər, tanınmışlarla bağlı bir dosye hazırlayıb.

### Viktor Yuşşenkoya sui-qəsd cəhdi

Ukrayna tarixdə qalan "narıncı inqilab"ın qəhrəmanı olan müxalif namizəd Viktor Yuşşenko 2004-cü ildə dioksin maddəsi ilə zəhərlənib. Yuşşenko Ukraynanın təhlükəsizlik xidməti rəhbərləri ilə axşam yeməyindən bir neçə həftə sonra zəhərlənib. Zəhərə görə üzü xeyli çirkinləşən Yuşşenko 2005-ci ilin yanvar ayında prezident kürsüsünə əyləşib.

### Turqut Özalın zəhərlənməsində şübhələr kimin üzərindədir?

Türkiyənin 8-ci prezidenti Turqut Özalın ölümü də müəmmalarla dolu olub. Turqut Özalın zəhərlənərək öldürülməsi haqqında söz-söhbətlər heç vaxt siyasi gündəmdən çıxmayıb. İllər əvvəl Əhməd Özal və Qorqud Özal "öldürüldü" iddiaları ilə Turqut Özalın ölümünü təkrarən siyasi gündəmə gətirib və onun zəhərlənmə məsələsi yenidən diqqət mərkəzində olub.

**Bu baxımdan sabiq dövlət naziri Mətin Gurdərənin hələ 10 il əvvəl Turqut Özalın ölümü haqqında danışarkən çox maraqlı fikirlər açıqlaması diqqətdən qaçmamalıdır.**



Viktor Yuşşenko



Turqut Özal

**Sabiq nazir bu haqda danışarkən bildirib ki, Ukraynada prezidentliyə namizədlərdən birini zəhərlədilər, həmçinin Londonda KQB-nin sabiq əməkdaşı zəhərləndi:**

"O illərdə çox pərişan bir Rusiya vardı, yerlə sürünürdü. Türkiyə də Özalın sayəsində bayraq kimi dalğalanırdı. Daha sonra KQB imkanlarından istifadə edərək Putin Rusiyadakı rejimə əl qoydu. Onun liderliyində Rusiya toparlandı. Rus dərin dövləti yerlə sürünən ölkəyə müdaxilə etdi, öz namizədini hakimiyyətə gətirdi və Rusiya toparlandı. Öz dövlətini düşdüyü vəziyyətdən xilas etmək üçün hadisələrə daxil olan KQB o zaman gələcəyi Qafqaz və Orta Asiya olmadan bir məna kəsb etməyəcəyini anlayırdı. Turqut Özal ora gedəndə səhhətində problemləri yox idi. Ancaq oradan çox pərişan qayıtdı, xəstəliyi getdikcə gücləndi.

Gələcəyin Rusiyası üçün Orta Asiya və Qafqazda Türkiyənin təsirini azaltmaq üçün Özala qarşı bir zəhərlənmə əməliyyatı oldusa, onların vasitəsilə oldu. Yəni Özala yeməklər hazırlanır. KQB-nin adamları yeməyə zəhər qatır və Özal Türkiyəyə qayıdanda pərişan olur, xəstələnir və vəfat edir. Tibbi baxımdan bunu araşdırmaq lazımdır".

### Litvinenko nümunəsi göz qorxudur

KQB sistemində zəhərlənmə ənənələri çox geniş yayılıb. Stalin Trotskini dəfələrlə zəhərləmək cəhdləri edib. Əvəzində Trotskinin katibi və cangüdəni pnevmoniyaya oxşar qəribə xəstəlikdən qəfil vəfat ediblər.

Stalin qurbanlarının əzabını görməyi sevən adam olub. O, zəhəri öz ailəsində də - qaynı Pavel Alliluyevə qarşı işlətməkdən çəkinməyib. Onu tənbəki ilə zəhərləmişdilər. Qorbaçovun bir qədər boşaltdığı buxovlardan sonra - Yeltsinin zamanında da Rusiya əvvəlki üsullarından əl çəkməmişdi. Fəaliyyəti yenidən bərpa edilmiş gizli laboratoriya bu dəfə milli təhlükəsizlik adıyla işini görürdü. 2004-cü ildə Şimali Osetiyada, Beslanda götürülmüş girovlar məsələsini tədqiq edən jurnalist Anna Politovskaya az qala isti içkinin qurbanı olacaqdı.

Anatoli Sobçakın da qəribə ölümündən danışırlar. Onun ölümünü tədqiq etməyib hər şeyi zəif ürəyinin üstünə atdılar. Əslində o, mehmanxana lampasına yaxılmış, qızdıqda zəhərli buxar verən toksindən dünyasını dəyişmişdi. Litvinenkonun işinin ən qızmar vaxtında İrlandiyadan ağır vəziyyətdə qayıdan Yeqor Qaydarın vəziyyətini həkimlər Iqeyri-qida zəhərlənməsi» kimi şərh etdilər.

Müasir dövrün ən səs-küylü zəhərlənməsi Putinin düşməni Aleksandr Litvinenkonun başına gəlib. A.Litvinenko eks KQB agenti idi və V.Putinlə kəskin münasibətləri ilə tanınırdı. Oliqarx Boris Berezovskinin zəhərlənməsi məsələsini tədqiq edən Aleksandr Litvinenko ölkədən qaçandan sonra kitabında gizli laboratoriyanın işindən danışırdı. O, açıq şəkildə Putini ittiham etdiyindən London hotellərinin birində səhər çay içərkən zəhərləndi. Bunu bilərəkdən açıq-aydın etdilər ki, qalanlara görk olsun.

O, 2006-cı il noyabrın 23-də Londonda vəfat edib. Ölümündə zəhərlənmə izləri olduğu artıq təsdiqlənib. O, "Millennium" hotelinin "Pine Bar"ında dostları saydığı iki keçmiş Rusiya casusu - Andrey Luqovoy və Dmitri Kovtunla görüşdən bir neçə saat sonra özünü pis hiss edib. Qusma və kəskin ağrı simptomları ilə noyabrın 3-də yaşadığı şimali Londondakı yerli xəstəxanaya qəbul edilib. Litvinenkoda radioaktiv zəhərlənmənin əlamətləri var idi. Onun saçları tökülürdü. Lakin həkimlər onu Geyger sayğacı ilə müayinə edəndə, radiasiya qeydə alınmamışdı.

### Sergey Skripal və qızı Yuliyanın zəhərlənməsi

Keçmiş rusiyalı casus Sergey Skripal və qızı Yuliyanın zəhərlənməsinə görə şübhəli şəxs kimi iki rusiyalının adları açıqlanıb.

66 yaşlı cənab Skripal və 33 yaşlı qızı Yuliya mart ayında Noviçok adlanan sinir iflicedici maddə ilə zəhərlənib.

Şübhəlilər martın 2-də Moskvadan Londona gəlib və Bow küçəsində "City Stay" hotelində qalıblar. Martın 4-də onlar Skripalın yaşadığı evin qapısını "Noviçok"la zəhərləyiblər.

Rusiya prezidenti Vladimir Putinin ən çox qorxduğu da elə özünün zəhərlənməsidir. Dünyanın bir sıra müxtəlif liderləri üçün yemək hazırlayan ən yaxşı baş aşpazların elitar Klubu "Club des Chefs des Chefs"in banisi Jil Braqar Rusiya liderinin qorxusu haqda danışıb. Onun sözlərinə görə, Vladimir Putin ən çox zəhərlənmədən ehtiyat edir. Bu səbəbdən də Putinin göstərişi ilə ixtisaslaşdırılmış dequstatorlar- həkim və aşpazlar məcburi qaydada onun yeməklərini yoxlayırlar.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019



# Bakı yeni silah tədarükçülərinə çıxır - işğalçıya bəd xəbər

## Erməni lobbisinin güclü olduğu Fransa da Azərbaycanla hərbi əməkdaşlığa gedir; **rusiyalı ekspert Bakının Ermənistanla bağlı yaxın və uzaq hədəfi barədə:** "Naxçıvana yolun açılması..."

**Keçən həftə Gürcüstanda ilk dəfə rəsmi səfərdə olan Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan azərbaycanlı həmkarı Elmar Məmmədyarovla növbəti görüşün anonsunu verdi. Lakin işğalçı ölkənin XİN başçısı görüşün yeri və vaxtı barədə dəqiq bir söz demədi. Dəqiq olan hələlik budur ki, iki ölkənin xarici siyasət başçıları arasında indiyədək baş tutan bir neçə çoxsaatlıq görüş sülh prosesinə təkan verə bilməyib. Əvvəl bəyan edildiyi kimi, xalqları sülhə hazırlamaqla bağlı proses heç cür işə düşə bilmir.**




Bunun da əsas səbəbi Ermənistanın Dağlıq Qarabağ məsələsində tutduğu qeyri-konstruktiv mövqe, atəşkəs (işğal) rejimini süni surətdə uzatmaq cəhdidir. Vəziyyət o yerə çatıb ki, erməni tərəf hətta dövlət sərhədi boyu da sabitliyi pozmağa cəhd edir. Təbii ki, layiqli cavabını da alır. Fakt budur ki, təkcə son bir neçə gündə Ermənistan ordusu 3 hərbçisini itirib, daha bir neçə erməni hərbçi yaralanıb.

Xəbər verildiyi kimi, Ermənistan XİN-i itkilərlə bağlı kəskin reaksiya verib. Öz növbəsində Azərbaycan tərəfi baş verənlərə görə məsuliyyəti haqlı olaraq İrəvanın üzərində qoyub. Azərbaycan Dövlət Sərhəd Xidməti isə erməni snayperlər tərəfindən tibbi maşının atəşə tutulduğunu əks etdirən görüntüləri paylaşıb - hansı ki, Azərbaycan tərəfinin adekvat cavab verməsinə gətirib. Rəsmi Bakı bir daha bəyan edib ki, ərazilərimizdə Ermənistan işğalçı qoşunları qaldıqca belə hallar, erməni hərbçilərin öldürülməsi davam edəcək.

******

**Hərbi və siyasi ekspertlər cəbhə xəttində son baş verənləri şərh etməyə davam edirlər. Məsələn, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib ki, Ermənistan-Azərbaycan sərhədində atəşkəsin pozulması Ermənistan cəmiyyətinin diqqətini daxili problemlərdən yayındırmaq məqsədi daşıyır. O, sərhəddə atəşkəsin pozulmasının və nəticədə Ermənistan tərəfinin itki verməsinin təbii proses olduğunu bildirib.**

"Ermənilər sərhəddə atəşkəsi pozmaqla həmişəki məqsədlərinə xidmət edirlər. Onlar daima cəbhə bölgəsində gərginlik yaratmağa və danışıqlar prosesinə mane olmağa çalışırlar. Çünki danışıqlar prosesi ilə bağlı son zamanlar beynəlxalq təşkilatlardan Ermənistana müraciətlərin və təzyiqlərin sayı artıb", - deyə o qeyd edib.

Öz növbəsində rusiyalı siyasi icmalçı Mixail Belyayev hesab edir ki, son gərginliklərin qayəsində İrəvanın işğalçı siyasəti davam etdirmək məramı dayanır. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, "Vestnik Kavkaza" portalındakı təhlili məqaləsində yazır.

"İrəvan nəinki Dağlıq Qarabağa, onun ətrafındakı ərazilərə də öz iddiasını "daşlaşdırmaq" istəyir. Ancaq bu halda sual ortaya çıxır: Azərbaycan Ermənistanla hansı danışıqları aparmalı, nədən danışmalıdır? Üstəlik, Ermənistandan Dağlıq Qarabağa yeni yol çəkmək planı sülh prosesi üçün heç də yeganə və yeni qıcıqlandırıcı amil deyil. Bura erməni rəsmilərinin "bir qarış torpaq da verilməyəcək" kimi açıqlamalarını və işğal altındakı ərazilərin süni məskunlaşdırılması barədə bəyanatlarını da əlavə edin. Odur ki, Bakı gərək bundan sonra erməni siyasi isteblişmentində "qırğılar"la yanaşı, guya konstruktiv "göyərçinləri"n olması barədə illüziyaya qapılmasın. Bakı gərəkəni edib. Hərçənd onu da başa düşmək lazımdır ki, əgər Bakı Paşinyan hökuməti ilə anlaşmaya cəhdlər etməsəydi, beynəlxalq birliyin gözündə destruktiv tərəf qismində məhz o qəbul olunacaqdı".

**Ekspert yazır ki, Paşinyanın sülh bəyanatları artıq öz əhəmiyyətini itirib:** "İndi artıq tam dəqiqdir ki, "düzən Qarabağın" qaytarılması barədə tezislər arxada qalıb və onun yerinə "yeni müharibə ilə yeni ərazi" tezisi gəlib. İrəvanın minimum hədəfi işğal siyasətini davam etdirmək və ardınca istisnasız olaraq, işğal edilmiş bütün əraziləri yüridik şəkildə Ermənistanın tərkibinə qatmaqdır. Maksimum hədəf isə - Naxçıvanı, Gəncəni ələ keçirmək, Azərbaycanın şimalı və cənubunda separatçılığı qızışdırmaqdır".

**Analitik məqalənin sonunda "erməni iştahı"na qarşı Bakının minimum hədəflərindən də yazıb:** "Ermənistanın müdafiə naziri David Tonoyanın səsləndirdiyi yeni konsepsiyadan çıxış edərək, Azərbaycanın öz köhnə konsepsiyasına qayıdışını gözləmək tamamilə məntiqli olardı: "Əgər erməni əsgəri ölmək istəmirsə, qoy rədd olub getsin bizim ərazilərimizdən". Yaranmış vəziyyətdə Bakı üçün minimum vəzifə Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonu qaytarmaq, maksimum hədəf isə - Ermənistanı kollaps həddinə çatdırmaq və Naxçıvana birbaşa yol aşmaq üçün onun siyasi və iqtisadi blokadasını davam etdirməkdir".

*****

Sözsüz ki, Azərbaycan bu hədəflərə özünün üstün iqtisadi və hərbi gücü hesabına çata bilər. Proses bu istiqamətdə də gedir. Diqqətçəkicidir ki, Bakı bu yöndə silahlanma siyasətini şaxələndirir. Fransa kimi erməni lobbisinin güclü olduğu dövlətin hesabına Rusiyadan silah asılılığını minimuma endirməyə çalışır.

Bu mənada Fransanın iqtisadiyyat və maliyyə naziri Bruno Le Merin bir neçə gün öncə Bakıda ən yüksək səviyyədə keçirdiyi görüşlər zamanı Azərbaycanın Fransa üçün həmişə mühüm iqtisadi tərəfdaş olduğunu və Parisin buna böyük önəm verdiyini, Fransanın müdafiə sənayesi sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu söyləməsi böyük önəm kəsb edir.

**Politoloq Elxan Şahinoğluya görə, Fransada güclü erməni lobbisinin olmasına baxmayaraq, Paris artıq Azərbaycanla hərbi əməkdaşlıq başlamaq barədə qərar verib. "Rəsmi Bakı bu qərarın verilməsini çoxdan gözləyir.** Azərbaycan Fransadan həm hərbi texnika almaqda, həm də Fransa ilə birgə hərbi texnikanın istehsalında maraqlıdır. Təsadüfi deyil ki, keçən ilin sentyabrında Bakıda keçirilmiş "ADEX-2018" beynəlxalq Müdafiə Sərgisində ilk dəfə Fransa iki şirkətlə təmsil olunmuşdu. Həmin iki şirkət Azərbaycanla müştərək əsasda hərbi patrul gəmiləri istehsal etməyə maraq göstərirdilər. Bunun davamı olaraq bu ilin iyununda Parisdə keçirilən "Paris Air Show-2019" sərgisində Azərbaycan da təmsil olunmuşdu. Bu sərgi çərçivəsində də hərbi əməkdaşlıq məsələləri müzakirə olunmuşdu. Beləliklə, Fransa Azərbaycanla hərbi əməkdaşlığa başlamaq istəyir. Azərbaycan bu əməkdaşlığa milyardlarla dollar maliyyə ayırmağa hazırdır. Azərbaycan bu il Rusiyadan hərbi texnika almayıb. Azərbaycan yeni və modern hərbi texnikanı Fransa və digər bu kimi ölkələrdən almaq istəyir", - deyə politoloq qeyd edib.

**Elxan Şahinoğlu hesab edir ki, Fransa Azərbaycana hərbi texnika satarsa və birgə hərbi istehsala başlayarsa, rəsmi İrəvan və Fransadakı erməni lobbisi buna etiraz edəcək, müxtəlif petisiyalar hazırlanacaq:** "Ancaq rəsmi Paris əgər Azərbaycanla hərbi əməkdaşlığa qərar veribsə və bunun üçün nazirini Bakıya göndəribsə, deməli, əvvəlcədən neqativ reaksiyaların olacağını və bunlara veriləcək cavabları da müəyyənləşdirib".

Qalır Bakı-Paris hərbi əməkdaşlığının real məzmun daşımasını gözləmək...



## Qazaxda hərbi hissə və bölmələrin xidməti-döyüş fəaliyyəti yoxlanılıb

**29-30 iyulda Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşüb, xidməti və yaşayış şəraitlərinə baxış keçirib.**

Bu barədə DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib. Bildirilib ki, Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti, dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanış olunub. DSX-nin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019

# Daha bir "mahmudovçu" generalın işi Ali Məhkəmədə

## Sabiq MTN-çi generalların sirr kimi saxlanılan böyük gözləntiləri var; onların şikayətlərini "yaxşı günlər" üçün geri çəkmələri müşahidə olunur

**Bu gün, avqustun 1-də Ali Məhkəmədə hakim Fərhad Əliyevin sədrliyi ilə MTN general-mayoru Elçin Quliyev və polkovnik Azər Mehdiyevin kasasiya şikayətinə baxılacaq. Elçin Quliyev ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin sabiq rəisidir, Azər Mehdiyev həmin mərkəzin işçisi olub.**

Azər Mehdiyev və digər MTN əməkdaşları 2015-ci ilin oktyabrında, Elçin Quliyev isə həmin ilin dekabrında həbs edilib. MTN-dəki məlum yoxlamalardan sonra Elçin Quliyev tutduğu vəzifədən azad olunaraq MTN-in Heydər Əliyev adına Akademiyasında kafedra rəisi təyin edilib.

Həmin günlərdə uzun illər Elçin Quliyevin müavini vəzifəsində olmuş İlqar Əliyev və digər "mahmudovçu"lar həbslərinin ilk günlərini yaşayırdılar. Elçin Quliyevin yeni təyinatını bir çoxları onun həbs edilməyəcəyinin təminatı hesab edirdi. Lakin 2015-ci il dekabrın 20-də İlqar Əliyevi Bakı İstintaq Təcridxanasında saxlanıldığı kamerada asılmış vəziyyətdə aşkar etdilər. O günlərdə Bakı İstintaq Təcridxanasında saxlanılan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov sonradan vəkili vasitəsilə ictimaiyyətə İlqar Əliyevin döyülərək öldürüldüyünü, sonradan isə asıldığını çatdırdı.

İlqar Əliyevin müəmmalı ölümündən sonra onun qardaşı İsmayıl Əliyev "Yeni Müsavat"a olduqca ilginc açıqlamalar verməşdi. Demişdi ki, Elçin Quliyev qardaşının yasına qatıldığına görə həbs olunub.


Elçin Quliyev

Ali Məhkəməyə üz tutan Elçin Quliyev Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrum etməklə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olma), 181.3.1-ci (mütəşəkkil dəstə tərəfindən quldurluq törətmək), 181.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə quldurluq törətmək), 182.3.1-ci (mütəşəkkil dəstə tərəfindən hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma, eyni əməllər informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələrdən istifadə edilməklə törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmək), 309.2-ci (vəzifə səlahiyyətlərini aşmaqla, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olma), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan olunub. Bakı Hərbi Məhkəməsinin hökmü ilə E.Quliyev 10 il 6 ay, A.Mehdiyev isə 8 il azadlıqdan məhrum ediliblər. Məhkəmə hər iki təqsirləndirilən şəxsin rütbədən məhrum edilməsi barədə ölkə prezidentinə təqdimat göndərilməsi haqqında qərar qəbul edib. Məhkəmə zərərçəkmişlərin mülki iddiasını təmin etməyib. E.Quliyevə qarşı Dövlət Təhlükəsizlik Xidmətinin 7 milyon manatlıq mülki iddiası təmin olunub. Təqsirləndirilən şəxslərin üzərinə həbs qoyulmuş mülklərinin müsadirə olunması barədə də qərar qəbul edilib. Hökmdən narazı qalan hər iki şəxs apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi isə apelyasiya şikayətini təmin etməyib, hökmü qüvvədə saxlayıb.

Elçin Quliyevdən əvvəl Ali Məhkəməyə MTN-in Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Natiq Alıyev və iş üzrə zərərçəkmiş İlqar Nəriman oğlu Əliyevin kasasiya şikayəti üzrə məhkəmə prosesi keçirilmişdi.

Hakim Fərhad Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənlər kasasiya şikayətini geri götürdükləri elan etmişdilər.

Bu ilin fevralında Bakı Apelyasiya Məhkəməsində MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev və Elşad Əzizovun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası qərar çıxarmışdı. Qərara əsasən, təqsirləndirilən şəxslərin apelyasiya şikayəti təmin edilməyib, birinci instansiya məhkəməsinin çıxardığı hökm dəyişdirilmədən qüvvədə saxlanılılıb.

Maraqlıdır ki, bundan əvvəl MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun barələrindəki məhkəmə qərarından verilmiş kasasiya şikayəti üzrə məhkəmə prosesi gözlənilmədən baş tutmamışdı. Belə ki, Ali Məhkəmədə hakim İnqilab Nəsirovun sədrliyi ilə baş tutan prosesdə Akif Çovdarov və digər şikayət edən şəxslər şikayətlərini geri götürmələri barədə ərizə veriblər və bu ərizə təmin olunub. Bu səbəbdən kasasiya şikayətləri baxılmamış saxlanılıb.

Sabiq MTN-çilərin ard-arda Ali Məhkəməyə şikayətlərindən vaz keçmələri bu məsələyə diqqəti artırır. "MTN işi" üzrə gözlənilməz gəlişmə müşahidə edilməkdədir. 2015-ci ilin oktyabrında Eldar Mahmudovun həbsə alınan komandasının üzvlərinə məhkəmələrində loyal münasibət müşahidə olunur. Məsələn, MTN-in Nəqliyyat və Energetika Sahələrində Təhlükəsizlik Baş İdarəsinin tabeliyindəki idarələrdən birinə rəhbərlik etmiş Akif Əliyevin cəzası 1 il azaldılaraq, 4 ilə endirilib. Bu barədə Ali Məhkəmədə qərar çıxarılıb. Qərara əsasən, A.Əliyevə verilən ittiham maddələri də dəyişib. A.Əliyev Nəqliyyat və Energetika Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi Akif Çovdarovla birlikdə mühakimə olunmuşdu. 2015-ci ilin oktyabrında MTN-də keçirilmiş əməliyyat nəticəsində nazirliyin 21 əməkdaşı cinayət məsuliyyətinə cəlb olunub. Onlardan biri - MTN-in Antiterror Mərkəzinin rəis müavini olmuş polkovnik İlqar Əliyevin asılmış vəziyyətdə meyiti saxlandığı istintaq təcridxanasındakı kamerasında aşkar olunmuşdu. Qalan 20 nəfərin işi bir neçə yerə ayrılıb. Nazirliyin İstintaq İdarəsinin şöbə rəisi olmuş Vüsal Ələkbərov və Əks-Kəşfiyyat İdarəsinin keçmiş şöbə rəisi Mirəziz Əsgərov ayrılıqda mühakimə olunublar. M.Əsgərova 3, V.Ələkbərova 12 il cəza verilib. Bakı Apelyasiya Məhkəməsi keçmiş müstəntiq V.Ələkbərovun cəzasını 5 ilə endirib. "Mahmudovçu" generalların Ali Məhkəməyə qədər uzanan yoldan qəfil geri çəkilmələri təsadüfi hesab oluna bilməz. Belə görünür ki, hər birinin gözləntiləri var. Bu gözləntinin nəyə əsaslandığı isə uzun müddət sirr kimi qalmaya da bilər.

**E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Sabirabadda iki nəfər qorxunc xəstəliyə yoluxdu, biri öldü

## Vəziyyətləri ağırlaşandan sonra xəstəxanaya müraciət ediblər və...

**Sabirabadda eyni kənddən olan iki nəfər qarayaraya yoluxub, onlardan biri 2 gün əvvəl ölüb (ölən şəxsin kimliyi virtualaz.org-a məlum-dur,-red.)**

Səhiyyə Nazirliyinin mətbuat katibi Pərviz Abubəkirov virtualaz.org-un sorğusuna cavabında bildirib ki, Sabirabad Rayon Mərkəzi Xəstəxanasına yüksək hərarətlə iki xəstə gətirilib. "Hər ikisinin hərarəti yüksək olub, amma soyuqdəymə olması ehtimalı ilə həkimə müraciət etməyiblər. Yalnız vəziyyətləri ağırlaşandan sonra xəstəxanaya müraciət ediblər", - P.Abubəkirov bildirib.

Xəstəxananın infeksion şöbəsinə yerləşdirilən xəstələrə ilkin diaqnoz kimi "qarayara şübhəsi" qoyulub. Şöbənin müdiri Fazil Əliyevin tapşırığı ilə xəstələrdən nümunələr götürülərək İmişli Rayon Taun Əleyhinə Stansiyaya göndərilib. Taun Əleyhinə Stansiyanın mütəxəssisləri qarayara diaqnozunu təsdiqləyiblər.

"Bundan sonra yaxınlarının təkidi ilə xəstələr Bakıya, Klinik Tibbi Mərkəzə gətirilib", - P.Abubəkirov əlavə edib.

İyul ayının 25-də xəstələr ağır vəziyyətdə xəstəxanaya yerləşdiriliblər. İyulun 29-da 60 yaşlı kişi ölüb. Həkimlərin bildirdiyinə görə, yara ölənin sağ əlinin baş barmağında olub. P.Abubəkirov qeyd edib ki, xəstəxanaya gətirilərkən xəstələr ağır vəziyyətdə olub. Hazırda ikinci xəstənin müalicəsi davam edir.



Qeyd edək ki, qarayara insandan insana keçmir, xəstə heyvanın emalı zamanı yoluxur. Rəsmi statistikaya görə, 2014-cü ildə 10, 2015-ci ildə 9, 2016-cı ildə 10, 2017-ci ildə 6, 2018-ci ildə 9, bu il isə 7 nəfər qarayaraya yoluxub. 2014-cü ildən indiyədək ölüm qeydə alınmamışdı.

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin İnformasiya təminatı, ictimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Yolçu Xanvəli isə bildirib ki, məlumat daxil olan kimi dərhal yerində araşdırma aparılıb və heyvanlar arasında qarayaraya yoluxma qeydə alınmayıb:** "Həmin şəxslərin qəssab olduğu deyilir. Onlar təsərrüfatla məşğul olmayıblar. Heyvanlar arasında qarayaraya yoluxma qeydə alınmayıb".

Xəstəlikdən qorunmağın ən yaxşı yolu xəstə heyvanların ətinə toxunmamaq, baytar nəzarəti olmayan yerlərdən ət almamaq, əti çiy yeməmək və yarıbişmiş yeməkdən qaçmaqdır. Qarayara xəstəliyindən ölən heyvanları uyğun bir şəkildə basdırmaq və ya yandırmaq yayılmanın qarşısını alır. Xəstəlikdən ölən heyvanların bütün təbii dəlikləri (ağız, burun) tamponlanaraq, 2 metr dərinliyində çuxura atılır və üzərinə dezinfeksiyaedici maddə (əhəng və s.) tökülür, sonra torpaqlanır.

Sabirabaddakı mənbələrdən dəqiqləşdirdik ki, qarayara xəstəliyindən öldüyü bildirilən şəxs motosikleti ilə yerli qəssablara ət daşıyırmış, ehtimal ki, virusa da bu yolla yoluxub.



# Azərbaycanın bəyənilən xarici borc siyasəti

## Natiq Cəfərli: “Getdikcə borcun azaldılması yaxşı prosesdir və neftin qiymətinin yüksək olduğu indiki mərhələdə maksimum az borclanmaya gedilməsi lazımdır”

**Müasir dünyada borclanma demək olar ki, adi həyat tələbinə çevrilib. İstər ailə təsərrüfatları olsun, istər biznes, istərsə də dövlətlər az qala bütün layihələrini borcla icra edirlər. Bu baxımdan, borclanma həyat norması kimi qəbul olunur. Həm də fərdi şəxslər və biznes üçün deyil, dövlətlər üçün də.**

Bu gün dünyada borcu olmayan dövlət yoxdur. Elə dövlətlər var ki, borcu Ümumi Daxili Məhsulundan dəfələrlə böyükdür, elələri də var ki, kifayət qədər ehtiyatlı borclanma siyasəti yürüdərək, dövlət öhdəliklərinin artmasına imkan vermirlər. Azərbaycan məhz sonuncu qrupa aid olunan dövlətlərdəndir: hökumət borclanmaya yanaşmada xeyli mühafizəkar siyasət yürüdür.

Beynəlxalq Valyuta Fondunun (BVF) hesablamalarına görə, 2018-ci ilin sonuna dünya ölkələrinin dövlət borcu 69 trilyon dollardan artıq olub. Bu, dünya ÜDM-nin 80 faizindən çox deməkdir. Bu borcun təxminən 52 trilyon dollar və ya 3/4 hissəsi inkişaf etmiş ölkələrin payına düşür. İnkişaf etməkdə olan ölkələrdə dövlət borcunun həddi xeyli aşağıdır. Amma son illərdə burada da böyümə meyli hiss olunur. Belə ki, 2012-ci illə müqayisədə ötən ilin sonuna inkişaf etməkdə olan ölkələrin dövlət borcu 50 faiz artıb.

**Borclanmaya mühafizəkar yanaşma**

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan borclanmaya mühafizəkar yanaşma nümayiş etdirən ölkələrdən biridir. Hökumət 2005-ci ildən etibarən ənənəvi donoru olan Beynəlxalq Valyuta Fondundan kredit alışını dayandırıb. Eyni zamanda dövlət qurumlarının dövlət zəmanəti ilə kredit alması prosedurları, alınan kreditlərin qaytarılmasına qoyulan tələblər xeyli sərtləşdirilib. Buna səbəb bir sıra dövlət şirkətlərinin, ASC-lərin dövlət zəmanəti ilə aldıqları kreditlərə məsuliyyətsiz yanaşmaları üzündən həmin vəsaitlərin dövlət tərəfindən qaytarılması məcburiyyətinin yaranmasıdır.

Maliyyə Nazirliyinin rəsmi məlumatına görə, bu ilin 1 yanvarına Azərbaycanın xarici dövlət borcu 8,927.1 milyon dollar (15,176.0 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) nisbəti 19.0 faiz (2018-ci il üçün hesablanmış 79,797.30 milyon manat ÜDM-ə nisbətdə) təşkil edib. Borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanətilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib.

Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlərdən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

Qeyd edək ki, dövlətlərin xarici borclarının həddi ilə bağlı əsas meyar olaraq dünyada borc məbləğinin ölkə ÜDM-nə nisbəti əsas götürülür. Hesab edilir ki, xarici borcun həcmi illik ÜDM-in 40 faizindən artıq olarsa, xarici borcun dayanıqlı idarəedilməsi üçün təhlükə yaranır. Lakin əksər inkişaf etmiş ölkələrdə bu hədd olaraq ÜDM-in 60-65 faizi götürülür. Məsələn, Avropa Birliyinə üzvlüyə namizəd ölkələr üçün xarici borcun maksimum həddi ÜDM-in 60 faizi səviyyəsində müəyyənləşdirilib.

Azərbaycanda xarici borcun ÜDM-ə nisbəti uzun illər boyu 10 faizin altında olub. Dünya neft bazarında qiymətlərin enməsi nəticəsində ölkədə baş verən kəskin devalvasiyalar nəticəsində bu nisbət 2015-ci ildə 10 faizədək artıb. 2017-ci ildə “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin xarici öhdəliklərinin dövlətin üzərinə keçməsi nəticəsində xarici dövlət borcu 31,6 faiz artaraq ÜDM-in 24 faizinə çatıb.

Onu da bildirək ki, ölkənin ödəmə qabiliyyəti baxımından xarici dövlət borcunun bir il ərzində 25 faiz və ya daha çox artması təhlükəli dəyişiklik hesab olunur. Azərbaycanda bu rəqəm 2017-ci ildə 31,6 faiz artmaqla təhlükəli dəyişiklik nümayiş etdirib. Lakin ötən il dövlət borcunda artım deyil, 5 faizlik azalma qeydə alınıb ki, bu da müsbət tendensiya hesab olunur.

**Borclanmaya dair strategiya nə vəd edir?**

Hökumət ötən ildən etibarən xarici borclanmanın aşağı salınması istiqamətində daha ciddi tədbirlər həyata keçirməyə başlayıb. Bu məsələ dövlət başçısı tərəfindən 2018-ci ilin avqustunda təsdiqlənmiş “Dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli və uzunmüddətli strategiya”da da əksini tapıb. Strategiyaya görə, 2019-cu ildə Azərbaycanın xarici dövlət borcu 9,7 milyard dollara çatacaq. Lakin sonradan 2025-ci ilədək xarici borcun həcminin 6,5 milyard dollara qədər azaldılması planlaşdırılır və hökumətin hesablamalarına görə, 2026-cı ilədək Azərbaycanın xarici borcu ÜDM-in 12 faizi səviyyəsinə qədər azalacaq. Strateji hədəf isə borcun 10 faizin altına salınmasıdır.

**Bunu ölkə prezidenti, həmçinin maliyyə naziri dəfələrlə bəyan ediblər. Maliyyə naziri Samir Şərifovun dediyinə görə, xarici valyutada dövlət borcunun ÜDM-də payını 17 faiz azaltmaq mümkün olub və bu gün Azərbaycanın nominallaşdırılmış xarici valyuta borcu ölkənin məcmu gəlirinin yalnız 1/5 hissəsini təşkil edir:** “Prezidentin həyata keçirdiyi kompleks sosial-iqtisadi islahatlar proqramın vacib tərkib hissələrindən biri dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsidir. Bunun vacib elementlərindən biri dövlət borcunun idarə edilməsi ilə bağlıdır. Dövlət borcunun idarə edilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. O cümlədən 2018-ci ilin büdcə sistemi haqqında qanunvericiliyə edilmiş düzəlişlər hesabına fiskal büdcə qaydası təsdiq olunub. Bundan başqa, dövlət başçısı Azərbaycanın dövlət borcunun idarə edilməsi üzrə uzunmüddətli strategiyanı təsdiqləyib. Məhz bu vacib sənədlər çərçivəsində biz həm dövlət maliyyəsinin, həm də dövlət borcunun idarə edilməsini bundan sonra da həyata keçirəcəyik. Bununla yanaşı, şübhəsiz ki, borc sahəsində görülən tədbirlər nəticə verməkdədir. Belə ki, prezidentin qarşımıza qoyduğu xarici borcun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbətinin azaldılması barədə tapşırıq mərhələlərlə icra olunmaqdadır. Ötən il xarici valyutada ifadə olunan dövlət borcunun ÜDM-ə nisbəti 5 faiz fəndi azaldılaraq, 24 faizdən 19 faizə endirilib. Eyni zamanda biz ölkədə daxili borc bazarının da inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tuturuq. Ümumiyyətlə, bu sahədə bizim əsas vəzifəmiz ondan ibarətdir ki, xarici valyutada ifadə olunmuş borcu azaldaraq daha çox onu milli valyutada olan borcla əvəzləyək. Hesab edirəm ki, bu, bizim borc sahəsində dayanıqlığımızı xeyli artıracaq və dünya bazarındakı xarici şoklara qarşı müqavimətimizi xeyli möhkəmləndirəcək”.

**Beynəlxalq Valyuta Fondu Azərbaycanın xarici valyuta ilə olan kreditləri azaltmaq siyasətini müsbət qiymətləndirir. Fondun (IMF) Azərbaycan üzrə missiyasının yeni rəhbəri Nataliya Tamirisa bildirir ki, qurum Azərbaycan hökumətin dövlət borcu idarəçiliyi strategiyasını alqışlayır və onun xarici valyuta ilə ifadə edilmiş borc öhdəliklərini azaltmaq niyyətini dəstəkləyir (Report). N.Tamirisanın sözlərinə görə, Azərbaycan hökuməti ilə borclanma ilə bağlı Valyuta Fondu hər hansı bir danışıqlar aparmır:** “IMF 2005-ci ildən bəri Azərbaycana kredit verməyib. Azərbaycan IMF-dən maddi yardım istəməyib və bu tip yardımlara ehtiyacı yoxdur. Hazırda Beynəlxalq Valyuta Fondundan borc almaqla bağlı hər hansı danışıqlar aparılmır”. **IMF rəsmisi təmsil etdiyi təşkilatın Azərbaycana milli valyutada kredit vermək imkanının olmadığını da açıqlayıb:** “Dediyim kimi, Azərbaycan IMF-dən maddi yardım istəməyib və ona ehtiyacı yoxdur. Beynəlxalq Valyuta Fondunun qaydalarına əsasən IMF-dən götürülmüş hər hansı borc ”Xüsusi Borcalma Hüquqları"na (Special Drawing Rights - SDRs) əsasən hesablanır. Bu hesab vahidinin dəyəri sərbəst istifadə edilən valyutalar səbətinə əsaslanır. Digər beynəlxalq təşkilatlar öz razılığına əsasən yerli valyutada borc verə bilərlər".

**Hədəflərə nail olunması realdırmı?**

Qeyd etdiyimiz kimi, Azərbaycan hökuməti həm xarici borcun ümumi məbləğini, həm də onun tərkibində xarici valyutada olan hissəni azaltmağı hədəfləyib.

**İqtisadçı-ekspert Natiq Cəfərli bildirir ki, hökumətin xarici borcu hesablamaq metodologiyası beynəlxalq standartlara uyğun deyil:** “Beynəlxalq standartlara əsasən xarici borca həm dövlət tərəfindən, həm də ayrı-ayrı dövlət qurumları tərəfindən dövlətin zəmanəti ilə götürülmüş borclar daxil edilməlidir. Azərbaycanda isə böyük dövlət qurumlarının dövlət zəmanəti ilə alınmış kreditləri dövlət borcuna daxil edilmir. Halbuki təcrübə göstərir ki, bir çox hallarda bu kreditlərin mühüm bir hissəsini elə dövlət özü qaytarmalı olur. Beynəlxalq Bankla bağlı vəziyyət bunun bariz nümunəsidir - dövlət bankın 3,2 milyard dollarlıq borcunu üzərinə götürdü. Digər tərəfdən, beynəlxalq standartlara əsasən dövlət borcu hesablanarkən borclanma müqaviləsində nəzərdə tutulan məbləğ hesablanmalıdır. Yəni dövlət hansısa beynəlxalq qurumla 20 illiyə 2 milyard dollar kredit müqaviləsi imzalayıbsa, həmin məbləğ bütünlüklə dövlət borcuna daxil edilməlidir. Azərbaycan hökuməti isə borcu hesablayarkən müqavilədəki məbləği deyil, alınıb faktiki xərclənmiş məbləği nəzərə alır. Bütün bunlar xarici borcun məbləğinin böyük görünməməsi üçün edilir və yanlışdır. Onsuz da beynəlxalq təşkilatlar hesablayarkən real məbləği əsas götürürlər”.

**İqtisadçının sözlərinə görə, real olaraq hazırda Azərbaycanın xarici dövlət borcu ÜDM-in 60-65 faizinə bərabərdir:** “Bu səviyyənin özü də beynəlxalq standartlara əsasən təhlükəli hesab olunmur. Dünyanın əksər ölkələrində xarici borc elə bu həddədir. Bu baxımdan, hökumətin real məbləği hesablaması daha yaxşı olardı”.

**N.Cəfərli deyir ki, hökumətin xarici borcun azaldılmasını hədəfləməsi müsbət haldır:** “Strateji olaraq, götürülən bu xətt düzgün yanaşmadır. Getdikcə borcun azaldılması yaxşı prosesdir və neftin qiymətinin yüksək olduğu indiki mərhələdə maksimum az borclanmaya gedilməsi lazımdır. Borclar artarsa, eyni zamanda neftin qiyməti kəskin ucuzlaşarsa, bu, Azərbaycan iqtisadiyyatı üçün ciddi çağırışlar yaradacaq. Milli valyutada olan xarici borcların məbləğinin azaldılması hədəfinə çatılmasını isə real hesab etmirəm. Çünki 2014-2015-ci illərdəki böhrandan sonra beynəlxalq agentliklər Azərbaycanın kredit reytinqlərini xeyli endiriblər. Bu şəraitdə hansısa təşkilatın, yaxud dövlətin Azərbaycana manatla kredit verəcəyi real görünmür. Ümumiyyətlə, son illərdə hansısa dövlətə milli valyuta ilə kredit verilməsi təcrübəsi, demək olar ki, tamamilə sıradan çıxıb. Manatla borclanma yalnız ölkə daxilində qiymətli kağızların buraxılması yolu ilə mümkündür. Buna görə də xarici borcların tərkibində manatla kreditlərin artması real görünmür”.

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**

Yeni Müsavat
N 160 (7330) 1 avqust 2019

# Bakıxanovda 8 binada alkapon söküntüsü obyektləri "çökdürüb"

## Şirkət təmirə görə alveri ölən sahibkarların aylıq yer puluna güzəşt etmir, mağazalar müştəri üzünə həsrət qalıb

**Paytaxtın Bakıxanov qəsəbəsində 8 binanın alkaponlarının sökülməsi obyektlərin bazarını "öldürüb". "Yeni Müsavat" xəbər verir ki, "Uğur-2" yaşayış kompleksində iki aydan çoxdur fasadların üzlüklərinin sökülməsi və təmir işləri gedir. Bununla əlaqədar binaların altındakı mağazalar müştəri üzünə həsrət qalıblar.**

Təhlükəsizlik tədbirlərinə görə binaların giriş-çıxışları məhdudlaşdırılıb, "fanerka" (dikt) ilə əhatələnib, dükanların qarşısı tam bağlanıb.

Bu da öz növbəsində obyektlərin alverini zəiflədib. Ancaq ticarətçiləri narazı salan təmir işləri deyil, "Uğur - 2" yaşayış kompleksində yaradılan bir MMC-nin obyektlərin aylıq icarəsində güzəşt etməməsidir. Sahibkarlar qeyd edirlər ki, şirkət ticarətçilərin vəziyyətini nəzərə almalıydı: "Biz bir ay işləyə bilməmişik. Buna görə bir qəpik də yer pulu verməməliydik. Biz neçə dəfə xahiş elədik ki, arendanın məbləğində güzəşt edin, dedilər müraciətə baxılacaq, amma nəzərə almadılar. Əgər sən təmir işlərinə başlamısansa və mən sənin ucbatından öz gəlirlərimdən olmuşamsa, ən azı icarə haqqında hesablanmalıdır, heç olmasa yarısı verilməlidir".

**Sahibkarların sözlərinə görə, hər tərəf taxtalarla bağlanıb, dükanlar görünmür, müştəriyə həsrət qalıblar:** "Burada kimisi ayda 400, kimisi 600 manat arenda verir. Biz də evimizə çörək aparırıq. Gözümüzü bu dükanlara dikmişik. Alver olmayandan sonra mən necə dolanım? Biz neçə dəfə dedik ki, siz gərək yer pulunda güzəşt edəsiniz. Amma nəzərə almadılar".

Bu binaların altında xeyli sayda mağazalar fəaliyyət göstərir. Kompleksin içinə açılan dükanlar da var, magistrala baxan obyektlər də. Amma alkapon söküntüsü bütün işləri korlayıb. Ticarətçilər isə ziyanla işləməkdədirlər. Yeri gəlmişkən, obyekt sahibləri qədər sakinlər də narazıdırlar. Bir tərəfdən iş ləng gedir, bir yandan da binaların liftləri düz-əməlli işləmir, bərbad gündədir, bloklarda hər mərtəbədə balkon qapıları olmalıdır, çoxusunda yoxdur. Bəzi mərtəbələrdə sakinlər yığışıb öz cibindən pul qoyub qapı alıblar, divarlara emosiya çəkdiriblər, döşəməyə metlax düzdürüblər.

Amma bunu sakinlər deyil, "Uğur-2" eləməlidir. Sakinlər soruşurlar ki, liftlər nə zaman normal işləyəcək. Hər binada 3 lift var, biri mütləq bağlanır, 19 mərtəbəli binanın camaatı 2 liftin ümidinə qalır. O liftlər də həftədə 2 dəfə xarab olmalıdır. Çünki əsaslı təmir edilmir.

Onu da deyək ki, Bakının Nizami rayonunda yerləşən "Diqlas" Ticarət Mərkəzindəki yanğın binaların tezalışan üzlüklərlə üzlənməsi məsələsi ilə bağlı hərəkətlənməyə səbəb olub. Çünki alkapon üzlük tezalışan materialdır və nə vaxtsa qarşısıalınmaz bir faciəyə səbəb ola bilərdi.

"Diqlas" Ticarət Mərkəzinin yanması, ətrafdakı alkapon üzlüklü obyektlərin külə dönməsi "Uğur-2" ilə bağlı real addım atmağa vadar edib. 2000-dən çox sakinin yaşadığı 20 mərtəbəli 8 binanın bütün alkaponları sökülətək.

8 binanın bir-bir alkaponlardan azad edilməsi xeyli vaxt alacaq. Onlar ümid edirlər ki, sentyabra qədər söküntü işlərini yekunlaşdıracaqlar. Amma bu iş o qədər də asan görünmür və ilin sonuna kimi uzanacağı istisna edilmir. Bundan sonra binaların fasadlarının hansı materialdan olacağına hələ qərar verilməyib.








Bəzi versiyalara görə, əvvəlki qaydada fasadlar rənglənəcək. Lakin başqa üzlüklərin vurulması da nəzərdən keçirilir. Bildirilir ki, alkaponlar söküldükdən sonra mənzillərin çıxarışları (kupça - E.S.) sakinlərə paylanacaq. Hətta iddialar var ki, alkaponların sökülməsi şərt kimi qarşıya qoyulub, yalnız bu halda "kupça"lar şirkətə verilə bilər.

Bu qərar isə sakinlərin ürəyincədir. Onlar deyirlər ki, həm çıxarışların verilməsi prosesi sürətlənəcək, həm də təhlükəsizlik tədbirləri görülür.

Sakinlər bildirirlər ki, bu alkaponlar binalara xüsusi yaraşıq versə də, əsas məsələ insanların təhlükəsizliyidir.

Qeyd edək ki, 2015-ci ilin mayında Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanda yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş məşum yanğın hadisəsində böyük itkilərin olması da məhz çoxmərtəbəli binanın tezalışan - poliuretan adlı materialla üzlənməsi ilə əlaqələndirilmişdi. İstintaqın gəldiyi, sonradan məhkəmə hökmü ilə bərkidilən qənaətə görə, binanın üzlüyü tezalışan kimyəvi birləşmələrdən ibarət olub və yanarkən zəhərli qazlar ayrılıb. Binanın üzlük materialında başlayan yanğın bir anın içində böyük bir ərazini əhatə edib, sakinlərin bir hissəsi binadan çıxmağa imkan tapmayıblar.

2015-ci ildəki məşum olaydan 3 il 10 ay sonra Bakının Nizami rayonunda "Diqlas" Ticarət Mərkəzi az bir müddətdə alışıb kül oldu. Olaydan sonra yenə də məlum oldu ki, binanın kibrit çöpü kimi bir anın içində yanıb külə dönməsinin səbəbi üzlük materialdır.

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Bakıətrafı kəndlər üçüncü su kəmərini gözləyir

## Əhali üç ildir ki, su çəkiləcəyini gözləməkdən bezar olub; camaat 8 ton içməli suya hər ay 25 manat ödəyir...

**"Üç ildir ki, su çəkiləcəyini gözləməkdən bezar olmuşuq. Olimpiya kompleksinə qədər camaatı içməli su ilə təmin ediblər. Amma bağlar massivində yaşayanlar susuzluqdan qırılır. Elə bil bura Kərbəla çölüdür.**

Kompleksdən bağlar massivinə isə iş dayanıb. Dövlət vəsait də ayırıb, amma 3 ildir ki, iş getmir. Biz pul verib içməli su almaqdan cana doymuşuq".





Bakının Zirə kəndinin bağlar massivində yaşayanlar bizimlə söhbətində belə deyirlər. Onların bildirdiyinə görə, bir çən su almaq üçün 25 manat ödəniş edirlər: "Su xətti çəksinlər, sayğac qoysunlar, bu pulu elə dövlətə verərik də, üstəlik, az ödəyərik. 8 ton su üçün 25 manat veririk.

Burada bir çoxu daimi yaşayanlardır. Bağ mövsümündə gələnlər də var. Amma evlərin çoxunda yay-qış yaşayış var, camaat əziyyət çəkir".

**Zirə sakinləri susuzluqdan ağacların, güllərin quruduğunu bizə göstərir. Onlar deyirlər ki, içməyə su tapılmır, ağaclar necə sulansın:** "Layihə yarımçıq qalıb, su çəkilmir. Biz 8 tona 25 manat verməkdənsə, həmin həcmə görə 4-5 manat dövlətə ödəyərik. Hər ay 25 manat su pulu vermək nə deməkdir? Əhali qışda 25 manat qaz pulu ödəyir. Biz hər ay 25 manat suya veririk. Əksəriyyəti şəhərdən su alır, maşına qoyub Zirəyə gətirir. Heç kimə səbəbi deyilmir ki, su çəkilişi niyə yarımçıq dayanıb. Kəndin bir hissəsinə su veriblər, bağlar massivi susuzluqdan mələşir. Adından da görünür ki, bağlar ərazisinə su daha çox lazımdır. İndi biz bilmirik ki, pul mənimsənilib, maliyyə çatışmır, yoxsa nədir, faktiki olaraq iş getmir".

**Bağlar massivində yaşayanlar deyirlər ki, onların qazı da yoxdur, amma indi əsas problem içməli su təminatıdır:** "Kənddə ağaclara baxın, hamısı solub-saralıb, qupquru olub. İnsanlar öz həyətindəki ağacları sulamağa imkan tapmır. Biz "Azərsu" rəhbərliyindən xahiş edirik ki, su problemimizə həssas yanaşsınlar".

**Zirə sakinləri bildirirlər ki, müvafiq qurumun rəsmiləri bağlar massivinə baş çəksələr real vəziyyətin şahidi olarlar:** "Görəcəklər ki, iş yarımçıq qalıb, kəndin bir tərəfində içməli su var, bağlar istiqaməti susuzluqdan yanır. Biz nə istəyirik? İstəyirik ki, layihə başa çatsın, sayğaclar quraşdırılsın, dövlətə pul ödəyək, evlərimizə su gəlsin".

**Bağ evi olan Xurşud 5 ildən çoxdur ki, burada yaşadığını söyləyir:** "Mən 3 aya 75 manat suya pul vermişəm. Halbuki üç ay ərzində borc gəlsəydi uzağı 15-20 manat verərdim. Ortada müəmma var, su çəkilişi niyə yarımçıq qalmalıdır? Yol çəkməyə başlanırsa, axıra qədər iş görülür,



qaz çəkilirsə, yarımçıq qoyulmur, mən birinci dəfə görürəm ki, su layihəsi yarımçıq qalsın".

Məsələyə sputnik.az saytı daha geniş yanaşıb. Yazıb ki, Bakıətrafı kənd və qəsəbələrdə suvarma və içməli su problemi yaşanır. Ləhiş bağları və Nardaran qəsəbəsində bağ massivlərində yaşayan sakinlər məlumat veriblər. Sakinlərin dediyinə görə, bağ massivlərində yaşayan bir çox vətəndaş suyu pulla alır. Üstəlik, 7 tonu 25 manata satılan içməli su xlorlu olduğu üçün ondan suvarma məqsədilə istifadə etmək olmur.

**Qurumun mətbuat katibi Anar Cəbrayıllı açıqlamasında bildirib ki, həqiqətən də Ləhiş bağlarının, Nardaran qəsəbəsinin və Albalılıq qəsəbəsinin bir hissəsində su şəbəkəsi yoxdur. Ancaq digər qəsəbələrin ərazisində su var:** "Mərdəkan, Şüvəlan, Kürdəxanı, Pirşağı, Görədil, Novxanı və s. ərazilərə normal su verilir. Şəbəkə olmayan ərazilər üçün də planlarımız var. Gələcəkdə planlayırıq ki, Ceyranbatandan Zirə istiqamətində 21 magistral su kəməri çəkək. Hazırda iki magistral su kəməri var. Biri 70-ci illərin sonunda, digəri isə 2013-cü ildə istifadəyə verilib".

A.Cəbrayıllı qeyd edib ki, Bakıətrafı qəsəbələrin normal su təchizatı üçün 3-cü su kəmərinin tikilməsinə ehtiyac var. Bu kəmərin tikilməsi, eyni zamanda paralel olaraq şəbəkələrin genişlənməsi hesabına gələcəkdə bağ massivlərində, Bakıətrafı kənd və qəsəbələrdə mərkəzləşdirilmiş qaydada su almayan əhali içməli su ilə təmin ediləcək.

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

### Elan

**Məmmədov Rauf Sabir oğlunun adına olan Daewo damas 99-SN-193 saylı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 160 (7330) 1 avqust 2019

# Bakıda növbəti söküntü dalğası-növbə "xruşşovka"lara çatdı

## Narazı sakinlər dinlənilir, problemlərin həlli istiqamətində tapşırıqlar verilir

**Bakıda istismar müddəti başa çatmış və eləcə də qəzalı vəziyyətdə olan binaların söküntüsünə başlanılıb. "Yeni Müsavat" xatırladır ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Bakı şəhərinin rayonlarında kəskin qəzalı vəziyyətdə olan, bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması mümkün olmayan binalarda yaşayan sakinlərin köçürülməsi istiqamətində işlərə hələ 2014-cü ildən start verilmişdi.**

2015-ci ildə baş verən devalvasiyalardan öncəki plana görə Bakıda və Bakıətrafı qəsəbələrdə beşmərtəbəli binalar sökülməli idi. Çünki "xruşşovka", "stalinka" kimi adlanan bu binalar istismar müddətini başa vurmuş hesab edilir. 2016-cı ildə Nazirlər Kabinetinin "Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbayel, Pirallahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 25 fevral 2016-cı il tarixli qərarına əsasən, adları qeyd olunan rayonların ərazisində abadlıq-quruculuq işlərinin davam etdirilməsi nəzərdə tutulub.

Pilot layihələrə əsasən, 5 il müddətində Suraxanı rayonunda 63, Nəsimi rayonunda 226, Xətai rayonunda 99, Nərimanov rayonunda 219, Nizami rayonunda 131, Yasamal rayonunda 18, Səbayel rayonunda 41, Pirallahı rayonunda 297 ev sökülməli idi. Hazırda bu qərara müvafiq olaraq Bakının müxtəlif rayonlarında pilot layihələr həyata keçirilir. Lakin 2-3 mərtəbəli binalar sökülüb, yerində çoxmərtəbəli tikililər ucaldılırdı. Məsələn, Nizami rayonu, Şirin Mirzəyev küçəsində artıq 4 ildir ki, ikimərtəbəli binalar hissə-hissə sökülür. Binada yaşayan sakinlərə müvəqqəti kiraye qalmaları üçün vəsait verilir və bina hazır olduqdan sonra isə tikintini aparan şirkət sökülən ikimərtəbəlilərin sakinlərinə sahəsi onların əvvəlki mənzillərinin sahəsindən 10 faiz çox olmaqla, yeni binadan ev verir. Qalan mənzillər isə satışa çıxarılır.



Uzun müddətdir ki, mətbuat səhifələrində istismar müddəti başa çatan "xruşşovka"ların nə üçün sökülməməsi ilə bağlı mövzular gündəmə gətirilirdi. Artıq növbə bu binalara da çatır. Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, müvafiq dövlət qurumlarının apardıqları araşdırmalara əsasən paytaxtın müxtəlif rayonlarında 17 qəzalı bina müəyyənləşdirilib və bu binalardakı mənzillərdə yaşayan sakinlərin köçürülməsinə başlanıb.

Qəzalı vəziyyətdə olan binalardan biri də Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi 150 ünvanında yerləşən 3 mərtəbəli, 43 mənzilli binadır. Bina 1889-cu ildə inşa edilib və uzun müddət əsaslı təmir olunmadığından qəzalı, yaşayış üçün yararsız vəziyyətə düşüb. Hazırda binadan sakinlərin köçürülməsi işləri davam edir.

Eyni zamanda Nəsimi rayonu, Azadlıq prospekti 80 ünvanında yerləşən beşmərtəbəli binanın da sökülməsi nəzərdə tutulub. Lakin bu binanın bəzi sakinləri təklif edilən şərtlərlə razı deyillər. Hazırda binanın 50 faizi köçürülüb. Yerdə qalan ailələr isə müxtəlif səbəblərdən evlərini tərk etmək istəmirlər. Sakinlərdən bəziləri 1-ci mərtəbədən ev istəyir, bəziləri kompensasiya ilə razılaşmırlar. Digər bir qismi isə ümumiyyətlə, evlərini tərk etmirlər. Şərtlərə görə bu binanın da sakinləri müvəqqəti olaraq kirayə mənzillərdə yerləşdirilməli, yeni bina hazır olduqdan sonra isə onlar ev verilməlidir. Sakinlər bildirdilər ki, eyni zamanda mənzilə görə kompensasiya məsələsi də mövcuddur. Belə ki, binada mənzilin hər kvadratı üçün söküntünü aparan şirkət tərəfindən 2500 manat miqdarında kompensasiya təklif edilir. Lakin bu məbləğlə də razılaşmayan sakinlər var. Ümumilikdə bina 11 blokludur və 102 mənzildən ibarətdir.

Onu da qeyd edək ki, digər ərazilərdə söküntüyə görə dövlət tərəfindən təklif edilən kompensasiyanın miqdarı əsasən hər kvadrata görə 1500 manat olub. Misal kimi "Sovetski" ərazisini göstərə bilərik.

Bayıl yamacı, sürüşmə zonasında yaşayan sakinlərin də köçürülməsi prosesi gedir. Orada da artıq evlərin böyük bir qismi köçürülüb. Köçürülən əhaliyə evlərinin kvadratına görə kompensasiya ödənilir. Kompensasiyanın miqdarına gəlincə isə sakinlərin sözlərinə görə, yaşayış yeri üçün hər kvadrata 1000 manat verilir. Digər yerlərə isə (zirzəmi, hamam və sairə) 250-300 manat ödənilir.

Yasamal rayonunda aparılan yuxarıda qeyd etdiyimiz söküntülərdən narazı qalan sakinlərlə ölkə başçısı İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, eləcə də Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov görüşüblər. Onlar qəzalı binada olub, burada yaşayan sakinlər və məskunlaşmış məcburi köçkünlərin istək və arzularını dinləyiblər.

Eldar Əzizov binanın kəskin qəzalı olması ilə əlaqədar sakinlərin buradan təcili köçürülməsinin vacibliyini vurğulayaraq bildirib ki, buradakı köçürülmə dövlət əhəmiyyətli tədbirlərlə bağlı köçürülmə deyil, binanın istismara yararsız qəzalı vəziyyətdə olması ilə bağlıdır və vətəndaşlara ödəniləcək vəsait kompensasiya deyil, maddi yardım kimi qiymətləndirilməlidir: **"Sözügedən bu binada sakinlərin köçürülməsi ilə bağlı ödəniləcək məbləğ şəhər üzrə maksimum həddə müəyyən edilib".**

Eldar Əzizov bildirib ki, birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu binada həyata keçiriləcək köçürmə işlərinin tez bir zamanda, vətəndaşların hüquqlarının pozulmasına yol verilməməsi və onlara müvafiq köməkliklərin göstərilməsi ilə bağlı tapşırıqlar verilib, məsələ nəzarətə götürülüb. Həmçinin sakinlərə bildirilib ki, sökülləcək binanın yerində hər hansı çoxmərtəbəli bina və ya ticarət obyektinin inşası nəzərdə tutulmayıb.

**Əli RAİS,**
**"Yeni Müsavat"**

# Avqustda "qora bişməyəcək"- aylıq hava proqnozu açıqlandı

## Bu ay havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir

**Avqustun 1-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən ONA-ya verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 22-27, gündüz 33-38, Bakıda gecə 24-26, gündüz 35-37 dərəcə isti təşkil edəcək.**

Atmosfer təzyiqi normadan aşağı 752 mm civə sütunundan 755 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən hava şəraiti:

Mülayim şimal küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 26-27 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək, lakin Böyük və Kiçik Qafqazın bəzi yerlərində yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 35-40, dağlarda gecə 15-20, gündüz 24-29 dərəcə isti təşkil edəcək.

**Tibbi-meteoroloji proqnoz:**

Avqustun 1-2-də Abşeron yarımadasında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

Avqust ayına olan hava proqnozu da açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqladığı məlumatda bildirilir ki, avqust ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir. Aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimal olunur. Birinci ongünlükdə ölkə ərazisində hava şəraitinin mülayim, əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam saatlarında bəzi dağlıq və dağətəyi rayonlarda yağış yağacağı gözlənilir.

Abşeron yarımadasında şimal küləyi üstünlük təşkil edəcək.

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 22-27 dərəcə isti (gecələr 20-25, gündüzlər 30-35 dərəcə isti, bəzi günlərdə 38 dərəcəyədək yüksələcəyi) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (norma 6-8 mm) gözlənilir.

Naxçıvan Muxtar Respublikasında orta aylıq temperaturun 24-27 dərəcə isti (gecələr 18-23, gündüzlər 32-37, bəzi günlərdə 39-41 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (norma 6-10 mm) gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarında orta aylıq temperaturun 17-20 dərəcə isti (gecələr 13-18, gündüzlər 21-26 dərəcə isti, bəzi günlərdə 29 dərəcəyə yüksələcəyi) gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı, bəzi yerlərdə isə bir qədər çox olacağı (32-55 mm) gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tər-Tər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında orta aylıq temperaturun 23-25 dərəcə isti (gecələr 20-25, gündüzlər 30-35 dərəcə isti, bəzi günlərdə 38 dərəcəyə yüksələcəyi) gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı, bəzi yerlərdə isə bir qədər çox olacağı (15-27 mm) gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz rayonlarında orta aylıq temperaturun 21-24 dərəcə isti (gecələr 17-22, gündüzlər 27-32, bəzi günlərdə 35-37 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 13-116 mm) gözlənilir.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul,

Salyan, Neftçala rayonlarında orta aylıq temperaturun 24-26 dərəcə isti (gecələr 22-27, gündüzlər 32-37, bəzi günlərdə 39-41 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 6-22 mm) gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında orta aylıq temperaturun 22-25 dərəcə isti (gecələr 20-25, gündüzlər 30-35 dərəcə isti, bəzi günlərdə 37 dərəcəyə yüksələcəyi) gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 13-83 mm) gözlənilir.

YENİ MÜSAVAT
Son səhifə
N 160 (7330) 1 avqust 2019

## Bunları bilirdinizmi?

* Ulduz düşməsi kimi tanıdığımız hadisə əslində atmosferə girərək yanan göy daşlarıdır.

* "Google Earth" proqramı ilə dünyanın hər yerini gəzə bilərik. Amma insanların 95 faizi bu proqramdan öz evlərinə baxmaq üçün istifadə edir.

* Anadolu və Orta Asiyada şans, xoşbəxtlik gətirməsi üçün gəlinin başının üzərindən arpa atılır.

* Dünyanın ən çox satılan telefonu iPhone yox, “Nokia”nın 2003-cü ildə satışa çıxarılan və 250 milyon ədəd satılan "Nokia 1100" modelidir.

* Türkiyədə Barış adının ilk daşıyıcısı müğənni Barış Manço olub.

* Stiv Cobs əslində suriyalıdır. Atası Abdulfattah Jandali adlı suriyeli ərəbdir və Cobsu övladlıq verib.

* Uruqvayın dövlət başçısı Jose Mujica maaşının 90 faizini xeyriyyə qurumlarına bağışlayır. O, 1.250 dollarla keçinir.

* Qallium adlı metal insan əlinin istiliyindən belə əriyir.

* Sultan Süleyman Qanuni öləndə əlinin birini tabutdan çölə çıxarmağı vəsiyyət edib. “Belə edin ki, hamı sultanın belə bu dünyadan əli boş getdiyini görsün”.

* İki nəfərlik velosipedi əlləri olmayan Carles Trip və qayaqları olmayan akrobat Əli Boven icad edib.

* İnsan onu ağladan insanları güldürənlərdən daha çox sevir.

* Quşlar alçaqdan uçursa, demək, hava soyuq və yağmurlu olacaq.

* Yaddaşını itirən insanlara musiqi dinlədirlər. Çünki beyin mahnıların içinə bir çox xatirəni əks etdirir.

* Uşaqların sevimlisi olan danimarkalı oyuncak firması LEGO-nun adı “yaxşı oyunlar” sözü olan “LEG GODT”ın qısaltmasıdır.

* 2009-cu ildə 10 yaşlı ingilis qız Zoe Pemberton nənəsini internetlə - ebaydan satışa çıxarıb.

* 1998-ci ildə ingilis hakim Martin Silvestr futbolçunu yumruqladığı üçün özünə qırmızı kart verməşdi.

* Günəşə ən yaxın planet Merkuri olsa da, Günəş sisteminin ən isti planeti Veneradır (423 dərəcə).

* Dünyada ancaq 30 ağ aslan var.



## Uşağın meyitini soyuducuda saxlayıb

ABŞ-ın Missuri ştatının Sent Luis şəhər sakini olan bir qadın bir neçə onilliklər boyunca soyuducuda balaca bir uşağın meyitini saxlayıb. Bu barədə “Washington Post” nəşri xəbər verib. 37 yaşlı Adam Smit anasının sirri barədə o, öləndə xəbər tutub. Evdə yır-yığış aparan zaman soyuducunun buzluq yerində o qədər də böyük olmayan karton qutu tapıb. “Mənim 37 yaşım var və o qutu 37 il boyunca orada olub. Mənə hər zaman deyilirdi ki, orada toy tortunun bəzək əşyaları var” - bunu da kişi deyib.

Smit həmin qutuya baxıb və orada balaca qız uşağının çəhrayı rəngdə odeyala bükülü olduğunu görüb. “Onun dərisi, saçları və başqa hissələri qalmışdı və o, mumiyaya çevrilmişdi” deyən kişi dərhal onu götürdüyü yerə qoyub və polisə zəng edib.

Ölü körpənin kimliyi müəyyənləşdirilməyib. Gözlənilir ki, ekspertiza nəticəsində onun kimliyi üzə çıxacaq. DNK analizi nəticəsində bu körpənin Smitin bacısı olub-olmadığı da müəyyənləşəcək. Onun sözlərinə görə, anası zamanında ölən bir körpəsi barədə danışırdı. Qohumları isə anasının əkiz körpələr dünyaya gətirdiyini, onlardan birinin öldüyünü, digərinin isə övladlığa verildiyini demişdi. “Anam hətta ölüm ayağında da mənə demədi ki, uşaqlardan biri qutudadır. Bu isə ondan xəbər verir ki, o, həmin uşağa nəsə edib və heç kimsənin bunu bilməsini istəməyib”- kişinin gəldiyi nəticə belə olub.

# Arvadına viza vermədilər, çamadanda qaçırmaq istədi

Fransa vətəndaşı öz həyat yoldaşını Polşaya çamadanın içində qaçırmaq istəyəndə yaxalanıb. Lenta.ru saytının xəbərinə görə, Polşa sərhədçiləri ər-arvadı qatardan düşürüblər. Adı açıqlanmayan kişi bildirib ki, Rusiya vətəndaşı olan arvadını çamadanda ölkədən qaçırmaq istəməsinin özəl səbəbi olub. Belə ki, buna səbəb qadına Şengen vizasının verilməməsi olub. Bildirilib ki, sərhədçiləri kişinin hədsiz dərəcədə böyük çamadanı şübhələndirib. Onlar son vaxtlar bir çox vətəndaşların qeyri-qanuni yollarla ölkəni tərk etməyə cəhd etdiyini, amma ilk dəfədir ki, bu üsuldan istifadə etdiklərini deyiblər. Məlum olub ki, sərhədi keçəndə çamadandan gələn qəfil səs sərhədçiləri hərəkətə gətirib. Çamadandan çıxarılan qadın özünü normal hiss etdiyini deyib, amma qəfil bir zərbə onun səsini çıxarıb yaxalanmasına səbəb olub. Həyat yoldaşını bu yolla ölkədən çıxarmaq istəyən kişinin 3 il müddətinə azadlıqdan məhrum ediləcəyi gözlənilir.



(Transl.: Stop human trafficking!)

# Metroda qıza qarşı əxlaqsızlıq etmək istəyən şəxsi belə ifşa etdilər



Çində bir sərnişin metroda qızın yubkasının altına baxmaq istəyən bir tərbiyəsizə mane olub. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Sərnişinlərdən biri qarşısında dayanan qızın ayağının altına mobil telefon yerləşdirərək, onu altdan çəkməyə çalışıb. Bunu onun yanında əyləşən kişi fərq edib. Bu zaman tez ayağa durub və qıza yer verib ki, onu çəkmək imkanı minimallaşsın. Hadisəni müşahidə edən şəxslərdən biri bunu çəkib və bir neçə gün ərzində 32 milyon dəfə izlənib.

2018-ci ildə xəbər verilmişdi ki, Yaponiyanın Xadano şəhərində özünü kor kimi təqdim edən şəxsi həbs etmişdilər. Bu şəxs satıcıdan onu ayaqyoluna aparmağı xahiş etmiş və orada qadına qarşı əxlaqsızlıq etmişdi.

## Pandanın hücumu ona 80 min dollar qazandırdı

Panda tərəfindən hücuma məruz qalan çinli 80 min dollar məbləğində kompensasiya alıb. Hadisə martın 14-də baş verib. Heyvan kəndə hücum edib, kənd əhli isə onu yaxalamaq üçün ağacdan yerə düşməsini gözləyib. Və bir gün panda çirk içində zərərçəkmişin üstünə cumaraq, ayağını dişləyib. Panda kişini o vaxt buraxıb ki, başqa bir kənd sakini onun üstünə paltosunu ataraq çaşdırıb. Bununla belə, son məqamda panda qaçmağa nail olub. Baş vermiş hücum nəticəsində kişi 7 saat davam edən əməliyyat keçirib. Bundan sonra çinlinin oğlu meşə təsərrüfatı idarəsinin yerli məmurlarını məhkəməyə verib. Onun şikayət ərizəsində qeyd edilib ki, meşələrdə hazırda 100 vəhşi panda var. Danışıqlardan sonra məmurlar 520 min yuan, yəni 83 min dollar məbləğindəki kompensasiyanı ödəməyə razılaşıblar. Kişi özü isə nəticədən razı qaldığını deyib. Bu pullar onun əməliyyat məsrəflərinə sərf olunacaq. Bununla yanaşı, yenidən cərrahi müdaxilə lazım ola bilər.

# Xəstənin sidik kisəsindən portağal boyda daş çıxdı

ABŞ-ın Çikaqo şəhərində həkimlər bir xəstənin sidik kisəsindən portağal böyüklüyündə bir daş tapıblar. Bu barədə “Daily Mail” nəşri xəbər verib. 56 yaşlı amerikalı qarnındakı ağrılara görə həkimə şikayət edib və bildirib ki, son üç gün ərzində qarnında gərginlik hiss edib. 6 ay ərzində həkimlər ona antibiotik yazaraq müalicə etməyə çalışıblar. Kompüter tomoqrafiyası göstərib ki, onun sidik kisəsində eni 10, uzunluğu 10.4 santimetr olan bir daş var. Mütəxəssislər qeyd ediblər ki, bu ölçüdə daş nadir hallarda olur.



Həkimlər daşı cərrahi müdaxilə nəticəsində kənarlaşdırıblar. Bu zaman isə xəstəyə əlavə antibiotik kursu təyin ediblər. Xəstəxanaya gəldiyi üçüncü gün qadını evə yazıblar. İndi onun şikayətləndiyi funksiyaları qaydaya düşüb.

Daha öncə xəbər verilmişdi ki, Çinin Uxan bölgəsinin sakininə təcili cərrahi əməliyyat lazım olmuşdu. Bu zaman onun sidik kisəsindən iri bir daş çıxarmışdılar. Daşı dərhal çıxarmasaydılar, kişidə böyrək çatışmazlığı yaranacaqdı.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 3.050